www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 9-12 may 2025-ci il Cümə № 80 (8690) Qiyməti 60 qəpik

## Xəbər

### OPEK+ ölkələrinin riskli qərarı - neft 50 dollara düşsə...

yazısı səh.12-də

## Gündəm

### Bu gün Moskva paradıdır




İkinci Dünya müharibəsində qələbənin 80 illiyinə həsr olunmuş hərbi parad müddətində Rusiyada internet məhdudlaşdırılacaq

yazısı səh.6-da

### Ən güclü ordular sırasında möhkəmlənən yerimiz

yazısı səh.10-da

### Əfv hazırlığı tamamlanır

yazısı səh.6-da

### Qazağın kəndlərinə görə ermənilərə kompensasiya

yazısı səh.9-da

### Putin ya hakimiyyətə nəzarəti itirib, ya da...

yazısı səh.5-də

### Milli Məclis xüsusi iclas keçirdi

yazısı səh.7-də

### Ay-ulduzlu üçüncü bayrağımız - Pakistan...

yazısı səh.8-də

### Ermənistanı qorxuya salan Gümrü müqaviləsi

yazısı səh.9-da

### Berlini görən cəmi 18 azərbaycanlı sağdır

yazısı səh.10-da

### Azərbaycanlılar "arama motoru"nda bunları axtarır

yazısı səh.13-də

### Bill Qeytslə "yeni müsavat"çını birləşdirən... solaxaylıq

yazısı səh.14-də

### Tofiq Yaqublu ilə bağlı müraciət olundu

yazısı səh.2-də

# TURİZM AGENTLİYİNDƏ DAHA BİR QALMAQAL

Xaricdə turizmin təşviqinə görə keçirilən bahalı tender niyə ləğv olunub? Hesablama Palatasının qurumdakı yoxlamaları davam edir

yazısı səh.3-də



# İraq hansı İŞİD-çiləri Bakıya vermək istəyir?

Terrorçulara qoşulmuş azərbaycanlıların ailələri düşərgələrdə saxlanır; Ərbildə Azərbaycan konsulluğunun açılması yenidən gündəmdə

yazısı səh.4-də



### Talıbovun əmrləri "qanundankənar" elan olunub

yazısı səh.3-də



Leyla Abdullayeva

### Parisdən səfirimizə qarşı növbəti sayğısızlıq

yazısı səh.5-də



Əli Əsədov

### İllik təhsil xərci 9 min manat oldu - baş nazirin qərarının şifrələri

yazısı səh.11-də

YENİ MÜSAVAT
N 80 (8690) 9 may 2025

# Nəqliyyatda gedişhaqqı bank kartları ilə olacaq




**Azərbaycanda dəmir yolu ilə yanaşı digər nəqliyyat vasitələrində də gedişhaqqını kartla ödəmək üçün təkliflər aidiyyəti dövlət qurumlarına təqdim edilib.**

"Report" xəbər verir ki, bunu "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin İdarə Heyətinin sədri Abbas İbrahimov bildirib.

"Biz buna hazırıq. Hazırda müştərilərimiz dəmir yolunda ödənişi təkcə kartla deyil, həm də "Apple-pay" və "Googlepay" vasitəsilə həyata keçirə bilir. Bu imkanı da onlara təmin etmişik. Digər ictimai nəqliyyat vasitələrində kartdan istifadə ilə bağlı təkliflərimizi müvafiq qurumlara vermişik. Əgər onlardan müsbət rəy olsa, bununla bağlı hazırlığımız və bilik-bacarığımız var. Bu xidmətin əhatə dairəsini sürətlə genişləndirə bilərik", - deyə o qeyd edib.



## Arif Babayevə Heydər Əliyev Mükafatı verildi

**Prezident İlham Əliyevin sərəncamı ilə Xalq artisti Arif Babayev Heydər Əliyev Mükafatına layiq görülüb. O, Azərbaycan mədəniyyətinin inkişafında xüsusi xidmətlərinə görə bu mükafata layiq görülüb.**

Modern.az sərəncamla əlaqədar Arif Babayevlə əlaqə saxlayıb.

O, Prezident İlham Əliyevə göstərdiyi diqqətə görə təşəkkür edib: "Ulu öndərin adını daşıyan mükafata layiq görülmək mənim üçün xoşbəxtlikdir. Ümummilli lider Heydər Əliyev də, cənab Prezident İlham Əliyev də hər zaman mədəniyyət sahəsində fəaliyyət göstərən sənətkarlara diqqət göstərib".

Xalq artisti səhhətində yaranan problemlərə görə hazırda xəstəxanada olduğunu bildirib.

Arif Babayevin sənət fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilib - o, Xalq artisti fəxri adı, "Şöhrət" və "Şərəf" ordenləri ilə təltif olunub.



## Eldar Əzizov: "...Özümüzü Fransa ilə müqayisə edə bilərik"

**"İşğaldan azad olunan ərazilərdə işlər ildırım sürəti ilə aparılır".**

Bunu Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü münasibətilə tədbir və Bakı Şəhər Prokurorluğunun inzibati binasının yeni korpusunun açılış mərasimində deyib. (Apa.az).

O bildirib ki, ölkədə bütün sahələrdə olan inkişaf prokurorluq orqanlarında da müşahidə olunur: "İşğaldan azad olunan ərazilərdə işlər ildırım sürəti ilə həyata keçirilir. Həmin ərazilərlə yanaşı, paytaxtda və digər regionlarda də inkişaf gedir, islahatlar aparılır. Digər postsovet ölkələrində durğunluq var, lakin bizim ölkəmizdə inkişaf sürətlə gedir. Azərbaycanda yaşayış səviyyəsi yüksəkdir. Biz bu gün özümüzü Fransa ilə də müqayisə edə bilərik. Lakin biz hazırda postsovet ölkələri ilə müqayisədə xeyli irəlidəyik. Balaca ölkə olsaq da, sözümüz keçir".




## Polis bu rayonda təcili əməliyyat keçirdi

**Abşeron rayonunda İran vətəndaşı vasitəsilə 19 kiloqram narkotik əldə etməkdə şübhəli bilinən şəxs saxlanılıb.**

Bu barədə Daxili İşlər Nazirliyindən məlumat verilib.

Bildirilib ki, rayon ərazisində keçirilən əməliyyat zamanı 37 yaşlı Elvin Quliyev tutulub. Onun idarə etdiyi avtomobilə baxış zamanı 14 kiloqram tərkibinə zərərli maddələr əlavə edilmiş marixuana, eləcə də 5 kiloqram heroin və metamfetamin aşkarlanıb.

E.Quliyev ifadəsində narkotik vasitələri şəxsiyyəti istintaqla araşdırılan İran vətəndaşı vasitəsilə Qaradağ rayonu ərazisindən götürdüyünü və ayrı-ayrı ünvanlara çatdıraraq maddi qazanc əldə etmək niyyətində olduğunu bildirib.

Faktla bağlı cinayət işi başlanılıb. Saxlanılan şəxs barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib. Əməliyyat-istintaq tədbirləri davam etdirilir.



## Tofiq Yaqublu ilə bağlı müraciət olundu

**Azərbaycanın bir qrup tanınmış ziyalısı həbsdə aclıq aksiyası keçirən Tofiq Yaqublu ilə bağlı Prezidentə müraciət ünvanlayıb.**

Müraciətdə T.Yaqublunun keçirdiyi aclıq aksiyasının artıq 6-cı həftəni geridə qoyduğu və aclığın yaratdığı fiziki-psixoloji fəsadların onun həyatına real təhlükə yaratdığı bildirilib.

Müraciətin sonunda deyilir: "Cənab Prezident! Dövlətin öz vətəndaşına mərhəmət və humanizm göstərməsi onun gücünün və əzəmətinin ifadəsidir. Sizdən rəhbərlik etdiyiniz ölkənin vətəndaşı kimi Tofiq Yaqublunun həyatını xilas etmək üçün iradə göstərməyinizi xahiş edirik".

Müraciəti imzalayanlar arasında Adil Qeybulla, Sabir Rüstəmxanlı Məmməd İsmayıl, Rüstəm Behrudi və Cavanşir Quliyev kimi tanınmış şəxslər var.




## Klub turnirlərində yenilənmiş sxem

**Yenilənmiş sxemə görə, UEFA-nın klub turnirlərində 2025-2026 mövsümünə 54 UEFA üzvünün (Rusiya yarışlardan kənardır) 238 komandası buraxılır: Çempionlar Liqasına 82, Avropa Liqasına 45, Konfrans Liqasına 111 komanda dəvət alır.**

Çempionlar Liqasının birinci təsnifat mərhələsində elənənlər Konfrans Liqasına, sonrakı mərhələlərində elənənlər Avropa Liqasına, Avropa Liqasının təsnifat raundlarında elənənlər Konfrans Liqasına köçür. Hər üç turnirin liqa mərhələsində 36 komandanın iştirakı nəzərdə tutulur, 9-24-cü yerləri tutanlar 1/16 finala, ilk 8 pilləni tutanlar 1/8 finala bilet alır.

Azərbaycan təmsilçisi "Qarabağ" Çempionlar Liqasına çempionlar yolunun ikinci mərhələsində start götürür, Avropa Liqası Azərbaycan üçün birinci mərhələdən, Konfrans Liqası ikinci mərhələdən başlayır.

Turnirlər 2025-ci il iyulun 8-də yola çıxır. Avropa Liqasının finalı 2026-cı il mayın 20-nə (İstanbul), Konfrans Liqasının finalı mayın 27-nə (Leypsiq), Çempionlar Liqasının finalı mayın 30-na (Budapeşt) təyin olunub.

## Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 18% artıb

**2025-ci ilin yanvar-aprel aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 18% artaraq 1,1 milyard ABŞ dolları təşkil edib. Bu dövrdə yeyinti məhsullarının ixracı 12,1% artaraq 300.1 milyon ABŞ dollarına bərabər olub.**

Bu barədə "APA-Economics" İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə istinadən xəbər verir.

Məlumata görə, cari ilin ilk dörd ayında qeyri-neft-qaz sahəsi üzrə ixrac olunan mallar arasında kimya sənayesi məhsulları ötən ilin müvafiq dövrünə nəzərən 35 milyon ABŞ dolları və ya 42,5%, şəkər 1,9 milyon ABŞ dolları və ya 25,8%, qara metallar və onlardan hazırlanan məmulatlar 4,1 milyon ABŞ dolları və ya 16,7%, meyvə-tərəvəz 26,8 ABŞ dolları və ya 14,8%, alüminium və ondan hazırlanan məmulatlar 6,1 milyon ABŞ dolları və ya 9,8%, pambıq iplik 360,9 min ABŞ dolları və ya 5,3% artıb.

2025-ci ilin yanvar-aprel aylarında ixrac olunan aqrar məhsullar 14% artaraq 232,7 milyon ABŞ dolları, aqrar-sənaye məhsulları 7,9% artaraq 90,8 milyon ABŞ dollarına bərabər olub. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 12,2% artaraq 323,57 milyon ABŞ dolları təşkil edib.

## Bu gün 28 dərəcə isti olacaq



**Mayın 9-da gözlənilən hava şəraiti açıqlanıb. Bu barədə Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib. Bildirilib ki, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Mülayim şimal-qərb küləyi axşam cənub-qərb küləyi ilə əvəz olunacaq.

Havanın temperaturu gecə 16-19° isti, gündüz 23-28° isti olacaq. Atmosfer təzyiqi 758 mm civə sütunundan 762 mm civə sütununa yüksələcək. Nisbi rütubət gecə 70-75%, gündüz 55-60% olacaq.



## Böyükşor-Pirşağı yolu bağlandı

**Böyükşor-Pirşağı yeni avtomobil yolunun 1,3-cü km-lik hissəsində yeni yerüstü piyada keçidinin tikintisi ilə əlaqədar hərəkət müvəqqəti olaraq məhdudlaşdırılacaq.**

Bu barədə "Report"a Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən məlumat verilib.

Bildirilib ki, hərəkətin məhdudlaşdırılması 10 may tarixində səhər saat 09:00-dan başlayaraq bir neçə saat ərzində qüvvədə olacaq.

Hərəkətin məhdudlaşdırılması ilə əlaqədar olaraq ərazidə sürücülərə alternativ yol ilə rahat və təhlükəsiz hərəkət təmin olunacaq.

"Sürücülərdən aparılan işlərə anlayışla yanaşmaları, qeyd olunan ərazidə hərəkətdə olarkən müvəqqəti yol nişanlarının tələblərinə, yol hərəkəti qaydalarına riayət etmələri xahiş olunur", - deyə agentlikdən bildirilib.

YENİ MÜSAVAT
N 80 (8690) 9 may 2025

# Turizm Agentliyində daha bir qalmaqal

## Xaricdə turizmin təşviqinə görə keçirilən bahalı tender niyə ləğv olunub? Hesablama Palatasının qurumdakı yoxlamaları davam edir

**Azərbaycan Dövlət Turizm Agentliyi yenidən medianın diqqətinə düşüb. Buna səbəb Turizm Agentliyinin Avropa ölkələrində təbliğat xidmətlərinin satınalınması layihəsi üzrə tenderdir.**



Dövlət Turizm Agentliyi tərəfindən 28 aprel-1 may 2025-ci il tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçiriləcək "ATM Dubai 2025" turizm sərgisində açar təhvili üsulu ilə sərgi stendinin quraşdırılması işlərinin satın alınması üzrə 10.03.2025-ci ildə başlanılmış açıq tenderə yekun vurulub və "BÜROMAX" Məhdud Məsuliyyətli Cəmiyyəti ilə satınalma müqaviləsi bağlanıb. Məlumat satınalmaların vahid internet portalında 24.04.2025-ci il tarixdə dərc edilib. Bundan sonra bəlli olub ki, Dövlət Turizm Agentliyinin müəyyən etdiyi ehtimal qiyməti ilə təchizatçıların təklif edərək qalib olduğu qiymətlər arasında kəskin fərq var. Dövlət Turizm Agentliyi açıq tender müsabiqəsində ehtimal olunan qiymətlə müqayisədə 20 faizdən dəfələrlə aşağı qiymət təqdim etmiş "BÜROMAX" MMC ilə satınalma müqaviləsi bağlamışdır ki, bu da "Dövlət satınalmaları haqqında" Qanunun tələblərinin pozulması deməkdir. Xəbəri Aktualinfo.org yayıb. Bu isə öz növbəsində keçirilmiş açıq tender prosedurunda saxtakarlıq hallarına yol verildiyinə əsaslı şübhələr yaradıb.

Tribunainfo.az isə xəbər verib ki, Turizm Agentliyi Avropa ölkələrində təbliğat xidmətlərinin satınalınması layihəsini həyata keçirə bilməyəcək. Buna səbəb tenderin ləğv olunmasıdır. Sayt dəqiqləşdirməsə də, böyük ehtimalla söhbət məhz yuxarıda bəhs edilən tenderdən gedir. Qeyd olunur ki, agentlik Avropanın bir çox ölkələrində turizm təbliği məqsədilə yol şouları təşkil etmək niyyətində olub. 873 min 931 min manatlıq layihəyə əsasən həmin şoular İtaliya, Polşa, Çexiya, Almaniya, Avstriya və İsveçrədə reallaşdırılmalı idi. "Sözügedən dövlət qurumu son zamanlar Azərbaycanda turizmin təşviqi istiqamətində bir sıra bahalı layihələr həyata keçirib. Ötən il bu məqsədlə bir neçə milyon manat xərclənsə də, ölkəyə gələn turistlərin sayında elə də ciddi dəyişiklik olmayıb".



Bəzi ekspertlər hesab edirlər ki, Turizm Agentliyinin ciddi layihələrinin olmasına baxmayaraq, strategiyası yanlışdır. Onlar hesab edirlər ki, xaricdə Azərbaycanı turizm sahəsində bu şəkildə təbliğ etmək effekt vermir, üstəlik, bu işlərin bahalı olduğunu və həddindən artıq çox pul xərcləndiyini də qeyd edirlər. Xatırladaq ki, Prezident İlham Əliyevin sərəncamı ilə 4 mart 2025-ci ildə Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyevə işində yol verdiyi nöqsanlara görə şiddətli töhmət elan edilmişdi. Bundan sonra mediada Fuad Nağıyevə şiddətli töhmət verilməsinin onun rəhbərlik etdiyi qurumdan xidməti yazışmaların sızdırılması ilə bağlı olması xəbərləri də yayıldı. Daha sonra Əməkdar mədəniyyət işçisi Tahir Əmiraslanov xaricdə təşkil olunan tədbirlərə dövlət tərəfindən ayrılan pullarla Turizm Agentliyinin məmurlarının səyahət etməsi barədə açıqlamalar verdi.

Ötən ay Hesablama Palatasının Dövlət Turizm Agentliyində yoxlamalar apardığı barədə rəsmi xəbər də yayılmışdı. "APA-Economics"in əldə etdiyi məlumata görə, artıq bir neçə müddətdir yoxlamalara başlanılıb. Hesablama Palatasından da "APA-Economics"in sorğusuna cavab olaraq məlumat təsdiqlənib. Bildirilib ki, Hesablama Palatasının 6 dekabr 2024-cü il tarixli kollegiya qərarı ilə təsdiq edilmiş 2025-ci il üçün iş planına əsasən, cari ilin yanvar ayından başlayaraq Dövlət Turizm Agentliyində dövlət vəsaitlərinin və digər dövlət əmlakının idarə olunmasının auditi keçirilir və "Hesablama Palatası haqqında" Qanunun 22-ci maddəsinə uyğun olaraq hazırda audit prosesi davam edir.

Yoxlamalarla tenderlərdə mənimsəmələr təsdiqlənərsə, ayrılmış vəsaitlərin təyinatı üzrə xərclənmədiyi üzə çıxarsa, hansı hüquqi addımlar atılmalıdır?

**"Bakı" Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov "Yeni Müsavat"a deyib ki, əgər audit nəticəsində dövlət vəsaitlərinin düzgün xərclənmədiyi və ya tenderlərdə mənimsəmə hallarının olduğu təsdiqlənərsə, bu, həm hüquqi, həm də ictimai baxımdan çox ciddi nəticələr doğura bilər:** "Bu cür vəziyyətlərdə atılacaq hüquqi addımlar yalnız cinayət təqibi ilə məhdudlaşmır. Tenderlər keçirilərkən şəffaflıq və hesabatlılıq prinsiplərinə riayət olunmalıdır. Bu məsələ ilə bağlı tenderlərdə qanunsuzluqlar təsdiq olunarsa, agentliyin məsul vəzifəli şəxsləri cinayət məsuliyyətinə cəlb oluna bilərlər".

**Hüquqşünas dedi ki, mənimsəmə və ya israfetmə halları açıq şəkildə hüquqi təqibə səbəb olur:** "Bu, xüsusilə vəzifə səlahiyyətlərini aşan şəxslərin dövlət vəsaitlərini öz şəxsi məqsədləri üçün istifadə etməsi hallarında mümkündür. Yaxud tenderdə iştirak edən təchizatçı şirkətlərin qalib gəlməsi üçün saxtakarlıq edilməsi də ciddi hüquqi nəticələrə yol açar. Bu tip halların üzə çıxması yalnız hüquqi addımlarla yekunlaşmır, həm də ictimaiyyətin düzgün məlumatlandırılmasına və nəticələrin şəffaf şəkildə açıqlanmasına ehtiyac var. Bu halların necə baş verdiyi açıq şəkildə bəyan edilməlidir. Bu növ korrupsiya və mənimsəmə hallarından sonra dövlət vəsaitlərinin geri qaytarılması üçün mülki məsuliyyət də önə çıxacaq. Hesablama Palatası tərəfindən həyata keçirilən yoxlamalar nəticəsində aşkarlanan hər hansı bir qanunsuz hərəkət, təqsirkar şəxslərin cəzalandırılmasına səbəb olacaq və maddi zərər ödənilməlidir".

**Natiq Ələsgərov deyib ki, korrupsiya faktlarının ictimaiyyətə açıqlanması vacibdir və bu, həm də dövlətin idarəçiliyinə olan inamı bərpa etmək məqsədini güdür:** "Bu səbəbdən, media və qeyri-hökumət təşkilatları tərəfindən həyata keçirilən tənqidi araşdırmalar, dövlətin bu məsələni həll etmək istiqamətində atdığı addımları diqqətlə izləyən və bu məsələdə şəffaflıq tələb edən bir cəmiyyətə ehtiyac var. Dövlət Turizm Agentliyində baş verən bu tip halların üzə çıxması yalnız idarəetmə və hüquq pozuntuları ilə bağlı deyil. Dövlət büdcəsindən ayrılan, lakin təyinatı üzrə xərclənməyən vəsaitlər ümumilikdə xalqın rifahında özünü göstərir. Belə saxtakarlıq halları korrupsiyanı gücləndirir və bu da ölkənin inkişafına mənfi təsir göstərir".

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**




# Talıbovun əmrləri "qanundankənar" elan olunub

**Naxçıvan Muxtar Respublikasında nazir təyinatı qaydalarında ciddi dəyişiklik gözlənilir. Modern.az xəbər verir ki, bundan sonra nazir vəzifəsinə təyinatlar birbaşa Ali Məclis sədrinin sərəncamı ilə deyil, Ali Məclisdə səsvermə yolu ilə təsdiq olunacaq.**

Artıq bu praktikanın tətbiqinə başlanılıb. Belə ki, Naxçıvan iqtisadiyyat naziri vəzifəsinə Kazım Hüseynəliyev səsvermə yolu ilə təsdiqlənib.

İlkin mərhələdə yayılan xəbərlərdə nazirin Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sərəncamı ilə təyin olunduğu bildirilmişdi. Lakin daha sonra yayılan rəsmi məlumatla təyinatın Ali Məclisdə səsverməsi yolu ilə həyata keçirildiyi dəqiqləşdirilib.

Ali Məclisin birinci müavini Bəxtiyar Məmmədov səsvermənin nəticələrini elan etdikdən sonra yeni iqtisadiyyat nazirini təbrik edib və ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Qeyd edək ki, əvvəllər Naxçıvanda bir çox nazir, komitə rəhbərləri və digər mühüm vəzifələrə təyinatlar Ali Məclis sədrinin sərəncamları ilə baş tuturdu. Burada Ali Məclisin sədri və ya sədr səlahiyyətlərini icra edən şəxslər sərəncamlar imzalayır, birbaşa təyinatlar edirdilər.

Təyinat mexanizminin dəyişməsi ilə paralel olaraq Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında da mühüm dəyişikliklər gözlənilir. Konstitusiyada nəzərdə tutulan əsas dəyişikliklərdən biri Naxçıvan Ali Məclisinin sədrinin "ali vəzifəli şəxs" statusunun ləğv edilməsi ilə bağlıdır. Hazırda həm qanunverici orqana rəhbərlik edən, həm də icra hakimiyyətində əsas sima kimi çıxış edən Ali Məclis sədrinin bu statusu hüquqi ziddiyyət kimi qiymətləndirilir. Dəyişikliklər baş tutarsa, bu ziddiyyət aradan qaldırılacaq və səlahiyyət bölgüsü daha aydın şəkildə tənzimlənəcək.

Həmçinin Naxçıvan Ali Məclisinin sədrinin nazir təyinatlarını həyata keçirməsi səlahiyyətlərinin də məhdudlaşdırılacağı gözlənilir.

# İcra hakimiyyətinin işçiləri qəzaya düşdü

**Hacıqabulda "Mercedes Vito" markalı nəqliyyat vasitəsi qəzaya düşüb. Qəza zamanı nəqliyyat vasitəsində olan şəxslər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq Şirvan Şəhər Xəstəxanasına çatdırılıblar.**

Qəzaya düşənlər Tərtər İcra Hakimiyyətinin işçiləridir.

Hadisə baş verməzdən əvvəl Bakıda dövlət tədbirində olublar, tədbir bitəndən sonra rayona qayıdırmışlar. Qəza zamanı Tərtərin Umudlu İnzibati Ərazi Dairəsi sədrinin müavini Bəhruz Aprel oğlu, Tərtər İcra Hakimiyyətinin rəsmisi Zabil Paşayevin oğlu Ziya Paşazadə, Qızıloba icra nümayəndəsinin müavini Rübabə Əliyeva, icra hakimiyyəti strukturuna daxil olan müxtəlif idarələrdə işləyən Kəmalə, Zəminə, Vüsalə adlı işçilər xəsarət alıblar.

Qəza zamanı zərərçəkmişlər hazırda Şirvan xəstəxanasında müalicə olunurlar. Qadınlardan 3-nün vəziyyətinin orta ağır olduğu bildirilir.

YENİ MÜSAVAT
N 80 (8690) 9 may 2025

# İraq hansı İŞİD-çiləri Bakıya vermək istəyir?

## Terrorçulara qoşulmuş azərbaycanlıların ailələri düşərgələrdə saxlanır; Ərbildə Azərbaycan konsulluğunun açılması yenidən gündəmdə

**İki gün əvvəl Bağdadda Azərbaycan və İraqın xarici işlər nazirləri Ceyhun Bayramov və Fuad Hüseyn arasında nümayəndə heyətlərinin tərkibində danışıqlar aparılıb. "Yeni Müsavat" bildirir ki, Azərbaycan Xarici İşlər Nazirliyindən verilən məlumata görə, tərəflər iqtisadiyyat, ticarət, enerji, nəqliyyat və kommunikasiyalar, elm, mədəniyyət, təhsil və turizm kimi əsas sektorları vurğulamaqla ikitərəfli və çoxtərəfli əməkdaşlığın gücləndirilməsi imkanlarını müzakirə ediblər. Həmçinin regional və qlobal gündəmdə olan məsələlər müzakirə edilib, nümayəndə heyətləri təhlükəsizlik məsələləri ilə bağlı fikir mübadiləsi aparıblar.**




Ceyhun Bayramov İraq tərəfinə Cənubi Qafqaz regionunda münaqişədən sonrakı vəziyyət, işğaldan azad edilmiş ərazilərin yenidən qurulması və minalardan təmizlənməsi barədə məlumat verib. Azərbaycan diplomatiyasının rəhbəri Ermənistanla yekun sülhə gedən yolda Bakının sülh səylərindən də danışıb. Fuad Hüseyn belə bir maraqlı fikir də səsləndirib. "Biz Azərbaycan vətəndaşı olan qadın İŞİD üzvlərinin mövcudluğunu və onların öz ölkəsinə qaytarılmasını müzakirə etdik. Xarici İşlər Nazirliyi bu məsələləri davamlı olaraq izləyir", - İraq XİN rəhbəri əlavə edib. Nazir Azərbaycanı İraq Kürdüstan regionunun Ərbil şəhərində Azərbaycanı Baş Konsulluq açmağa çağırıb. O, Azərbaycanın Ərbildə konsulluğunun açılmasının zəruriliyini də qeyd edib.

Qeyd edək ki, İraqla Azərbaycanı bir çox bağlar bağlayır. Hazırda da Azərbaycan və İraq arasında əlaqələr inkişaf edir, beynəlxalq təşkilatlarda əməkdaşlıq var. Hələ sovet vaxtı, 1974-cü ildə İraq Respublikasının Bakı şəhərində Baş Konsulluğu fəaliyyət göstərib. SSRİ respublikaları arasında yeganə ilk İraq konsulluğu Bakıda açılıb. Sovet İttifaqının dağılmasından sonra İraq Azərbaycanın müstəqilliyini tanıyan ilk on dövlətdən biri olub və 1992-ci ildən etibarən ölkələrimiz arasında diplomatik əlaqələr səfirlik səviyyəsinə yüksəlib.

2015-ci ildə Azərbaycan və İraq arasında birbaşa təyyarə reysləri açıldı və bu, ölkələrimiz arasında turizmin inkişafına böyük dəstək verdi. Azərbaycan və İraq Qoşulmama Hərəkatında, İslam Əməkdaşlıq Təşkilatında təmsil olunur. Beynəlxalq təşkilatlarda iki ölkə arasında əməkdaşlıq mövcuddur.

İndi də iki ölkə arasında münasibətlərin yeni mərhələsi başlanır. Sadəcə, İraqda uzun illər mövcud olmuş qeyri-sabitlik səbəbindən əlaqələr kəsilib. Və bu müddətdə İraqdakı terror qruplarına, İŞİD-ə qoşulan azərbaycanlılar da olub. Onların bir qismi öldürülüb, bir hissəsi həbsdədir, bəziləri Azərbaycana gələrkən istintaqa cəlb olunub. İraqda İŞİD-in tərkibində döyüşüb həlak olmuş azərbaycanlıların orada qalan arvad-uşaqları da var. Ona görə ərəb nazir onların qaytarılması məsələsini qaldırıb.

Bəs Azərbaycan bu məsələni birdəfəlik həll edə bilərmi? Ərbildə konsulluğun açılması necə, hansı cəhətdən vacibdir?

Yada salaq ki, Azərbaycan 2023-cü ildə İraq Kürdüstan Regionunun Ərbil şəhərində Baş Konsulluq açmağı planlaşdırırdı. Bu barədə xəbərlər həmin ilin fevral ayında yayılmışdı. Münhendə keçirilən təhlükəsizlik konfransı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev və İraq Kürdüstan Regionunun aşçısı Neçirvan Bərzani arasında görüş baş tutmuşdu. İraq Kürdüstan Regionunun rəsmi açıqlamasına görə, tərəflər Ərbildə Azərbaycan Baş Konsulluğunun açılması barədə razılıq əldə ediblər.



**Yaxın Şərq siyasəti üzrə yazar Kənan Rövşənoğlunun sözlərinə görə, o zaman həm İraq, həm Suriyada döyüşən azərbaycanlılar, eləcə də onların ailələri var idi:** "Hazırda kürdlərin əlində olan əl-Holl düşərgəsində də çox sayda İŞİD üzvləri var. İraqda 300-dən bir qədər çox azərbaycanlı İŞİD üzvü, o cümlədən qadın və uşaq var idi. Daha sonra hökumət, mərhum deputat Qənirə Paşayevanın da səyləri nəticəsində İraqdan qadınların və uşaqların bir hissəsini gətirdi. Amma görünür, hələ də qalanlar var".

**K.Rövşənoğlunun fikrincə, xüsusən də uşaqların düşərgələrdə qalması Azərbaycanda narahatlıqla qarşılanır:** "Onların ailə üzvləri, yaxın qohumları var. Bəziləri burada yaxın qohumlarının - baba və nənələrinin himayəsinə verilir, bəziləri də uşaq evlərinə yerləşdirilir".

**Siyasi şərhçi Ramiyə Məmmədovanın məlumatına görə, hələ 7-8 il əvvəl İraqda İŞİD-ə qoşulmuş 6 azərbaycanlı qadın ömürlük azadlıqdan məhrum edilib:** "Bundan başqa, İŞİD terrorçuları ilə ailə quran azərbaycanlılar var. Bunu İraq hökuməti açıqlamışdı. Sadəcə, onların arasında gizlənənlər və yaxud daha döyüşlərdə iştirak etməyənlər var. Onların aşkarlamaq çətindir. Eyni zamanda imtina edə bilərlər. Çünki artıq ailə həyatı qurduqlarını bildirirlər. Ona görə də bu məsələnin birdəfəlik həlli çətindir. Həmin şəxslər Yaxın Şərq həyatına adaptasiya olublar. Yeni Azərbaycana qayıtmaq da istəmələr. Bu qadınların təfəkkürü, həyata münasibəti fərqlidir. Onlar qapalı həyat yaşayırlar".

**Təhlilçinin fikrincə, təkcə İraq deyil, Suriyada da belə qadınlar ola bilər:** "Onların bəzilərinin ərləri döyüşlərdə həlak olub, uşaqları ilə düşərgələrdə qalıblar, bəziləri təkrar ailə həyatı qurub. Əslində Suriyadakı azərbaycanlı qadın və uşaqların taleyi ilə maraqlanmaq imkanı da yaranıb. Artıq yeni hökumətlə əlaqələr var, baş nazirin müavini Samir Şərifov da Suriyanın keçid prezidenti ilə görüşüb. Odur ki, Suriyada olan azərbaycanlılarla bağlı araşdırmalar da aparıla bilər".

**Ərbildə konsulluq açılmasına gəlincə, R.Məmmədova hesab edir ki, çoxdan olmalıydı:** "Artıq Kürdüstan muxtariyyəti ilə müəyyən təmaslarımız da var. Bu muxtar hökumətin baş naziri Neçirvan Bərzani ilə görüşlər keçirilib. Ərbildə böyük potensial var. Həm enerji sektorunda layihələr həyata keçirmək olar. Necə ki SOCAR Suriyada da bu planları nəzərdən keçirir. Eləcə də İraqın şimalında projelər reallaşdırmaq mümkündür. Bundan əlavə, bu bölgədə Türkiyənin təsiri böyükdür. Azərbaycan qardaş ölkə ilə birlikdə müştərək layihələr həyata keçirə bilər". **Ekspertin ediyinə görə, Ərbildə 2 milyon insan yaşayır, onların 400 mini türkmənlərdir:** "Onlarla əlaqələri yaxınlaşdırmaq üçün konsulluq açılması vacibdir. Onlar dəfələrlə Azərbaycana gəliblər, amma konsulluq açılarsa, daha rahat gediş-gəliş imkanı yaranar".

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

## Livanda "Azərbaycan evi" açıldı

**Livanın Kavaşra kəndində "Azərbaycan evi"nin açılış mərasimi keçirilib. "Teleqraf" xəbər verir ki, tədbirdə bu ölkədə yaşayan türkmənlərlə yanaşı, yerli ictimaiyyətin nümayəndələri, Akkar quberniyasının müftisi, Vəqflər şöbəsinin müdiri, millət vəkilləri, bələdiyyə sədrləri, şeyxlər, müəllim və şagirdlər iştirak edib.**

Mərasimdən öncə Kavaşra kəndində Qarabağ müharibəsi şəhidlərinin xatirəsinə ucaldılmış abidə ziyarət olunub. Tədbir Azərbaycanın və Livanın dövlət himnlərinin səsləndirilməsi, şəhidlərin əziz xatirəsinin yad edilməsi ilə başlayıb.

**Livanda "Azərbaycan evi"nin rəhbəri Xaled İsmayıl türkmən icmasının fəaliyyəti və orada evin açılmasını zəruri edən səbəblərlə bağlı ətraflı məlumat verib:** ""Azərbaycan evi"nin açılması türkmənlərin Azərbaycan tarixi, ədəbiyyatı və mədəniyyətini öyrənməsi üçün böyük fürsətdir. Bu imkanı bizə yaratdığına görə Azərbaycan dövlətinə minnətdarıq".

Bu əlamətdar hadisə münasibətilə soydaşlarımızı təbrik edən Diaspora İş üzrə Dövlət Komitəsinin sədr müavini Vaqif Seyidbəyov Livanda "Azərbaycan evi"nin açılmasının iki ölkə arasındakı münasibətlərin inkişafı, eləcə də burada yaşayan türkmən xalqının nümayəndələri üçün mühüm hadisə olduğunu söyləyib: "Bu günədək dünyanın 19 ölkəsində 30 "Azərbaycan evi" açılıb. Bu evlərin açılması Azərbaycan dövlətinin və Prezident İlham Əliyevin xaricdə yaşayan soydaşlarımıza qayğısının ən bariz nümunəsidir. İnanıram ki, burada yaşayan türkmənlər Livandakı "Azərbaycan evi"nin xətti ilə iki ölkə arasındakı münasibətlərin inkişafına böyük töhfə verəcəklər. Təcrübə göstərir ki, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında, soydaşlarımızın tarix və mədəniyyətimizi, ana dilimizi öyrənməsində Azərbaycan evlərinin xidməti əvəzsizdir".

Kavaşra kəndində "Azərbaycan evi"nin açılış mərasimi münasibətilə 300 nəfərin iştirak etdiyi bədii tədbir də təşkil olunub.

YENİ MÜSAVAT
N 80 (8690) 9 may 2025

# Putin ya hakimiyyətə nəzarəti itirib, ya da...

## Baş verənlər onu göstərir ki, Rusiya hakimiyyəti Bakı ilə münasibətdə səmimi deyil - rəylər

**Heydər Əliyevin anadan olmasının ildönümü ilə əlaqədar tədbirlərdə iştirak etmək üçün Rusiyanın Həştərxan vilayətinə səfərə yollanan deputat Azər Badamovun deportasiya edilməsindən sonra diqqətlər yenidən Moskva-Bakı gərginliyinə yönəlib.**



Postsovet məkanında Azərbaycanın müstəqil siyasət yeridən nadir ölkələrdən biri olması bir çox qüvvələrin xoşuna gəlmir. Rusiya Prezidenti Vladimir Putinin Bakıya səfəri ilə müşahidə olunan bir süjetdə rusların Azərbaycanda rahat yaşaması, həm dini, həm mədəni ənənələri üçün bütün şəraitin yaradıldığı, rus dilinin inkişafı və rus icmalarının sərbəst fəaliyyəti qeyd olunur. Bildirilib ki, Azərbaycanın dünyada artan rolu bəzi dairələrin narahatlığına səbəb olub.

Baş verənlər onu göstərir ki, ya Putin hakimiyyətə nəzarəti itirib, ya da Azərbaycanla səmimi deyil. Şübhəsiz ki, dövlət içərisində dövlət, müəyyən güc strukturları, xüsusilə də həmin dairələrlə bağlı olan kiberhücumların təşkilatçıları, müəyyən qurumlar, siyasi mərkəzlər var ki, onlar münasibətlərə xələl gətirən addımlar atırlar. Söhbət təkcə Rusiya daxilindəki qüvvələrdən getmir, xaricdə də belə qüvvələr mövcuddur. Fransanın xüsusi xidmət orqanları bu proseslərdə sözünü deyə bilir. Nəzərə almalıyıq ki, Fransa və Rusiya xüsusi xidmət orqanları arasında müəyyən əməkdaşlıq da mövcuddur. Digər dövlətlər də bu prosesdə iştirak edə bilər. Amma Azərbaycan tək deyil.

Ötən həftə Moskva və bütün Rusiyanın Patriarxı Kirill Azərbaycana iki dövlət arasında münasibətləri yumşaltmaq missiyası ilə gəlmişdi. Bundan əvvəl isə Putin İlham Əliyevə İkinci Dünya müharibəsinin başa çatmasının 80 illiyi münasibətilə təbrik məktubu göndərmişdi. Belə bir dönəmdə Rusiya Azərbaycan deputatı Azər Badamovu hava limanından deport edir. Deməli, ya Kreml hakimiyyətində Putinə tabe olmayan qüvvələr var, prezident onlarla bacarmır, onlar da münasibətləri bu cür gərginləşdirirlər, ya da mümkündür ki, Putin özü ikibaşlı oynayır - Azərbaycanla dost olmaq istəyi göstərir, həm də Azərbaycanla münasibətləri korlayan addımlar atır. Onu da deyək ki, bu məsələdə Rusiyanın ədliyyə sisteminə yerləşmiş ermənipərəst şəxslərin rolu da az olmayıb.

Bunlardan hansı realdır: Putin hakimiyyətə nəzarəti itirməyə başlayıb, yoxsa bunların hamısını özü təşkil edərək, Azərbaycana qarşı qeyri-səmimi siyasət aparır?

**Siyasi şərhçi Xəyal Bəşirov “Yeni Müsavat”a qeyd etdi ki, bu suallara Rusiya rəsmiləri aydın cavab verə bilər:** “Amma biz Moskvadan açıqlamaların mənasını oxuya bilirik. Biz görə bilirik ki, Azərbaycanla qonşuluq əlaqələrini qoruyub saxlamaq istiqamətində bəyanatlar verilir. Amma digər tərəfdən fərqli münasibət göstərilir. Yeni ortalıqda razılaşmalar var, Moskva bəyannaməsi imzalanıb, amma Rusiyanın hərəkətləri uyğun deyil. Bir yandan isti mesajlar verilir, Patriarx Kirill Kreml liderinin sözlərini çatdırır, Putin təbrik məktubu yazır, o tərəfdən vurulan təyyarənin istintaqı gecikir, deputat deportasiya edilir. Bunun özü ikibaşlı siyasətdir”.

**X.Bəşirov vurğuladı ki, Rusiya Azərbaycanla əlaqələrin yaxşı olmasında maraqlıdırsa, bunu addımlarında görməliyik:** “Rusiya liderinin iradəsindən kənarda addım atıla bilməz. Prezident Putinin bir tapşırığı ilə təyyarənin istintaqı yekunlaşa bilər. Burada təkcə Azərbaycan dövlətinin deyil, xalqının da tələbləri var. Eyni zamanda deputatımızla bağlı fərqli rəftar etmək olardı. Ən azı bunu publik şəkildə etməmək mümkün idi. Bütün bu hərəkətlər də müttəfiqliyin ruhuna uyğun deyil. Rusiya ilə yüzlərlə sənəd imzalanıb, amma Moskva bu razılaşmalara zidd bir siyasət yürüdür”.

**Siyasi ekspert Oqtay Qasımov** da belə söylədi ki, Rusiya kimi avtoritar rejim olan dövlətlərdə mərkəzin razılığı olmadan hər hansı özfəaliyyət mümkün görünmür. Onun sözlərinə görə, doğrudur, Rusiyada ermənipərəst dairələr var, amma onlar siyasi rəhbərliyin iradəsindən kənar anti-Azərbaycan addımlar ata bilməzlər: “Sadəcə, Rusiyanın dövlət siyasətində və siyasi fəlsəfəsində bu problemi axtarmalıyıq. Daha əvvəl də proqnozlaşdırmışdıq ki, Rusiya Ukraynada istəklərinin bir hissəsini təmin etdikdən sonra digər postsovet ölkələrinə təzyiqləri artıracaq və ilk sırada Azərbaycan olacaq. Çünki Rusiya istəblişmenti Azərbaycanın müstəqil və balanslı xarici siyasətini qəbul edə bilmir”.

**O.Qasımov əlavə etdi ki, Azərbaycan yeni reallıqlar yaradıb və Rusiya bununla razılaşmır:** “Biz Rusiya rəsmilərinin bəyanatlarında bu narazılığı görə bilərik. Onlar dəfələrlə Paşinyana sitəm ediblər ki, Ermənistanın Qarabağı Azərbaycan ərazisi kimi tanıması Rusiyanın istəklərini ifadə etmir. Həmçinin bu soyuqlaşma Rusiyanın günahı ucbatından olub. Təyyarəmizin vurulması, kiberhücum və deputatın deportasiya edilməsi qəbulolunmaz davranışlardır. Azərbaycan bərabərhüquqlu yanaşma tələb edir, Rusiya isə belə mövqe tutmur. Çünki Rusiya və rus cəmiyyəti keçmiş sovet ölkələrinə Rusiya imperiyasının ərazisi kimi baxır”.

**Onun fikrincə, xüsusən də Azərbaycan kimi özünü doğrultmuş, güclənmiş, dünyada etibarlı status qazanmış dövlətin olması Rusiyanın maraqlarına xidmət etmir:** “Rusiya hesab edir ki, Cənubi Qafqazda gərginlik qalmalı, Kreml özünün moderatorluq rolunu davam etdirməlidir. Azərbaycanın siyasəti isə Rusiya üçün bu mənada əngəl sayılır deyə bizə təzyiq göstərilir. Amma sadaladıqlarımız görünən səbəblərdir, onunla yanaşı bilmədiyimiz nüanslar da münasibətlərin korlanmasına təkan verib”.

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**

# Parisdən Bakıya növbəti sayğısızlıq

## Fransada İkinci Dünya müharibəsinin ildönümü tədbirlərinə Azərbaycan səfirinin dəvət edilməməsinə Bakıdan etirazlar

**Fransa hökuməti İkinci Dünya müharibəsinin xatirəsindən müvəqqəti siyasi məqsədlər üçün istifadə edir. Minval.az xəbər verir ki, mayın 8-də Parisdə İkinci Dünya müharibəsində Almaniya üzərində qələbənin 80-ci ildönümü münasibətilə genişmiqyaslı tədbirlər planlaşdırılır. Təntənəli tədbirə demək olar ki, bütün səfirliklər dəvət edilsə də, Azərbaycan səfiri Leyla Abdullayevaya dəvət göndərilməyib.**



Leyla Abdullayeva

Aydındır ki, Makronun komandası hər cəhətdən ucuz siyasi hərəkətlərə əl atır ki, bu da hökumətdə heç bir mənəvi dəyər və etik normaların olmadığını nümayiş etdirir. Azərbaycanın Almaniya üzərində qələbəyə verdiyi töhfə haqqında çox danışmaq olar. Yalnız ən məlum rəqəmlərlə kifayətlənək: Almaniyaya qarşı döyüş əməliyyatlarında 600 min vətəndaşımız iştirak edib. Onlardan 300 mini həlak olub. Azərbaycan hər onuncu vətəndaşını itirib. Ekspertlər Azərbaycan neftinin və logistikasının unikal rolunu təsdiq edirlər.

Ən əsası isə Fransız Müqavimət Hərəkatında Azərbaycan vətəndaşlarının iştirakı faktı var. Əvvəla, bu Əhmədiyyə Cəbrayılovdur. O, Fransanın ən yüksək ordeni ilə təltif edilib. Bundan əlavə, Fransa rəhbərliyi ona Hərbi Xaç, “Döyüş Şücaəti” Xaçı, “Fransız Müqavimət Hərəkatı” medalı, “Cəsarət” medalı verib. Həm də Əhmədiyyə Cəbrayılov Fransa naminə vuruşan yeganə soydaşımız olmayıb. Lakin görünür, Makron hökuməti bütün bunları gözardı etməyi özünə sığışdırmağı bacarır.

Ümumiyyətlə, Əhmədiyyə Cəbrayılov Fransada döyüşən yeganə azərbaycanlı deyil. Məsələn, Rodez şəhərindəki hərbi əsir düşərgəsində saxlanılan azərbaycanlılar Mirzəxan Məmmədovun rəhbərliyi ilə ilk sovet partizan dəstəsini formalaşdırmışdılar. Onlar düşərgədən qaçaraq Fransanın “sovet patriotları” hərəkatına qoşulub, Alp dağlarında vuruşublar. İdris Qasımov “Aret-Sol” batalyonunda xidmət edib, Lion, Dijon, Rodez və digər bölgələrin azad olunmasında iştirak edib. Fransız Müqavimət Hərəkatında döyüşən digər azərbaycanlılar arasında bunların adları çəkilir: Nurş İmamqulu oğlu Mehtiyev, Cəlil Tanrıverdiyev, Məmməd Məmmədov, Xasay Quliyev, Allahverdi Vəliyev, Hüseynrza Məmmədov, Təvəkkül Məmmədov, Abbas Hüseynov, Xələf Hacıyev, Xələddin Hacımuradov, Eyub Məmmədov, Knyaz Əbdürrəhimov, Məmmədtağı Mursəlov və başqaları. Onlar Fransanın Nim, Ales və digər şəhərlərinin azad edilməsində iştirak etmiş, Fransa tərəfindən orden və medallarla təltif olunublar.

Əslində Parisdə nəyin bayramının keçirildiyinin özü belə sual doğurur. İkinci Dünya müharibəsi başlayandan neçə gün sonra Fransa ağ bayraq qaldırdı. Fransanın Almaniyaya müqaviməti 43 gün davam etdi, Paris isə bir güllə belə atmadan təslim edildi.

**“Yeni Müsavat”a danışan professor Qabil Hüseynli xatırladır ki, İkinci Dünya müharibəsində alman faşistlərinə qarşı Müqavimət Hərəkatına rəhbərlik etmiş Şarl de Qoll Əhmədiyyə Cəbrayılov üçün Azərbaycana gəlmişdi:** “Makron administrasiyası o dərəcədə dəyərsizdir ki, bu faktdan bəlkə də məlumatsızdır. Həqiqətən də Avropa siyasətində çəkili, sözünün ağası olan, sanballı siyasətçilərin defisiti yaranıb. Ona görə də bu xüsusiyyətə malik adamların Yelisey sarayında oturması tragikomediyadır. Bu, nəhəng Fransaya yaraşmır, amma Makrondan hər şey gözləmək olar. Çünki erməni faşizmini dəstəkləmiş bir liderdir. O baxımdan faşizm üzərində qələbədə müstəsna payı olan Azərbaycana belə hörmətsizlik nümayiş etdirilməsi məni təəccübləndirmədi”.

**Q.Hüseynli hesab edir ki, səfirin tədbirə dəvət olunmaması rəsmi Bakıya olan nifrətdən irəli gəlir:** “Makron iqtidarı Azərbaycana düşmənçilik edir. Bizi ittiham edir ki, guya Ermənistan ərazilərinə hücum etmişik. Görün kin gözlərini nə qədər tutub ki, qələbə tədbirinə çağırmırlar. Halbuki nasistlərin Fransanı necə tutduqlarını yaxşı bilirik və bu işğaldan qurtuluşda Əhmədiyyə Cəbrayılovun, eləcə də digər partizanların iştirakına görə Makron baş əyməliydi. Amma siyasi mədəniyyəti çatmayıb. Yəni o vaxtın hadisələrini unudub, indiki Azərbaycana olan münasibətini nümayiş etdirib”.

**Professor Elxan Mirzəyev isə Fransanın bu qərarını siyasi addım kimi qiymətləndirir. Onun fikrincə, 44 günlük müharibədən sonra Fransanın Azərbaycanla ulduzu barışmır:** “Son aylarda bəzi bəyanatlar səngiyib. Makron da əvvəlki qədər anti-Azərbaycan açıqlamalar vermir. Görünür ki, Cənubi Qafqazda olan reallığı yavaş-yavaş dərk etməyə başlayır. Amma bununla belə, hər fürsətdə bizə qarşı hansısa hərəkətə yol verilməsini əldən qaçırmırlar. Bu dəfə də səfir Leyla Abdullayevanı tədbirlərə dəvət etməməklə Fransa hökuməti öz mahiyyətini nümayiş etdirib”.

**E.Mirzəyevin sözlərinə görə, Azərbaycan bundan çox da narahat olmamalıdır:** “Çünki Makron hakimiyyəti dövründə biz bu ölkədən müsbət hər hansı mövqe gözləmirik. Ancaq belə qeyri-etik diplomatik davranışa görə adekvat münasibət sərgilənə bilər. Hərçənd Fransa bu qələbədən danışanda bir qədər dilini qısa etməlidir. Onlar tez təslim oldular, işğalçı alman əsgərləri Fransa şəhərlərində min oyundan çıxdılar, əxlaqsızlıqlara yol verdilər, amma fransızlar bunun qarşısında müqavimət göstərməyiblər”.

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**




# Bu gün Moskva paradıdır

## İkinci Dünya müharibəsində qələbənin 80 illiyinə həsr olunmuş hərbi parad müddətində Rusiyada internet məhdudlaşdırılacaq

**Bu gün Rusiyanın paytaxtı Moskvada İkinci Dünya müharibəsində qələbənin 80 illiyinə həsr olunmuş parad keçiriləcək. Paradda 29 xarici ölkə başçısının iştirakı gözlənilir. Bu barədə jurnalistlərə Rusiya Prezidentinin köməkçisi Yuri Uşakov məlumat verib. Həmçinin paradda 13 ölkənin hərbçiləri iştirak edəcək. Bundan əlavə, 31 ölkənin müdafiə nazirliklərindən nümayəndə heyətlərinin gəlməsi gözlənilir.**

Bunlar aşağıdakı ölkələrin liderləridir: Ermənistan, Belarus, Bosniya və Herseqovina, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Özbəkistan, Türkmənistan, Braziliya, Burkina-Faso, Venesuela, Vyetnam, Qvineya-Bisau, Misir, Zimbabve, Çin, Konqo Respublikası, Kuba, Laos, Monqolustan, Myanma, Slovakiya, Serbiya, Efiopiya.

Uşakovun sözlərinə görə, Hindistan, İndoneziya, Nikaraqua və Cənubi Afrika da "yüksək səviyyədə" təmsil olunacaq. Moskvanın Ukraynaya qarşı müharibədəki əsas tərəfdaşı olan Kim Şen In isə parada qatılmayacaq və KXDR yalnız səfir səviyyəsində tədbirdə iştirak edəcək.

Mayın 9-da səhər, Uşakovun sözlərinə görə, xarici ölkə liderlərinin nümayəndə heyətlərinin qarşılanması mərasimi keçiriləcək, bundan sonra onlar Moskva vaxtı ilə saat 10:00-da paradın başlayacağı Qızıl Meydana gedəcəklər. Burada xarici hərbi kontingentlər də iştirak edəcək və onların keçidi olacaq. Rusiyanın müdafiə naziri Andrey Belousov deyib ki, paradda iştirak etmək üçün 19 ölkədən hərbi birləşmələr dəvət olunub. Bunların ən böyüklərindən biri 102 nəfərin daxil olduğu Çin hərbi kontingenti olacaq.

Onun sözlərinə görə, Moskvaya Rusiyada akkreditə olunmuş bütün diplomatik missiyaların rəhbərləri və bir sıra ölkələrin müdafiə qurumlarının rəhbərləri dəvət olunub. Kremldə xarici ölkələrin nümayəndə heyətlərinin rəhbərləri üçün təntənəli qarşılanma mərasimi keçiriləcək.

Uşakov əlavə edib ki, Çin Xalq Respublikasının sədri Si Cinpinin Moskvaya səfəri çərçivəsində tərəflər iki birgə bəyanat qəbul edəcək və mətbuat üçün çıxış edəcəklər.

Qələbə paradında həmçinin ABŞ və İsraildən olan veteranların da iştirakı nəzərdə tutulur. ABŞ-ın Rusiyadakı səfiri Linn Treysiyə də parad üçün dəvət göndərilib.

Məlumdur ki, Azərbaycan Prezidenti İlham Əliyev Qələbə paradında iştirak etməyəcək. APA Azərbaycan liderinin Moskva səfərini ləğv etməsinə təsir göstərən bəzi amilləri öyrənə bilib. Qeyd olunub ki, AZAL-ın sərnişin təyyarəsinin qəzaya uğramasından 5 ay keçsə də, Rusiya tərəfindən hər hansı əməliyyat-istintaq tədbirləri aparılmayıb, eləcə də bu hadisədə günahı olanlar tapılaraq məsuliyyətə cəlb olunmayıb.

Eyni zamanda bir müddət əvvəl Azərbaycanın bir sıra media resurslarına kiberhücumların Rusiyadan edildiyi təsdiqini tapıb. Moskva bu məsələyə də aydınlıq gətirməyib.

Bundan başqa, bir neçə gün əvvəl Azərbaycan parlamentinin üzvü Azər Badamovun Rusiyaya girişinə qadağa qoyulub, o, Moskvada aeroportda saxlanılaraq, deportasiya edilib. Rusiya tərəfi isə məsələ ilə bağlı əsaslandırılmış hər hansı açıqlama verməyib.

Bütün bu amillərin Azərbaycan Prezidentinin Moskvaya səfərinin təxirə salınmasına təsir göstərdiyi bildirilir.

Serbiya Prezidenti Aleksandr Vuçiç isə Kremlin divarları önündə videomüraciət yayımlayıb. Serbiya lideri bildirib ki, Moskvaya səfərinə müxtəlif ölkələrin necə reaksiya verdiyi onun üçün əhəmiyyət kəsb etmir. Vuçiçin sözlərinə görə, o, yaxşı bilir ki, nə edirsə-etsin, həmişə tənqid olunacaq, çünki Serbiyanın artıq avropayönlü yoldan çıxdığını deyəcək adamlar həmişə tapılacaq. Aleksandr Vuçiç vurğulayıb ki, onu nə Latviya, nə Estoniya, nə Litva, nə də başqa bir ölkə seçir.

Serbiya Prezidenti əmin olduğunu bildirib ki, respublika Avropa yolunda qalacaq. "Əgər kimisə cəzalandırmaq istəyirlərsə, qoy məni cəzalandırsınlar", - deyə Vuçiç əlavə edib. Prezident Vuçiç yaxın günlərə Patriarx Kirill ilə görüşəcək və ona orden təqdim edəcək.

Avropa Parlamentinin beş nəfərdən ibarət qrupu da Moskva paradında iştirak edəcək. "Sahra Vaqenknext İttifaqı - Ağıl və Ədalət Uğrunda Partiyasından olan Avropa Parlamentinin deputatları Rut Firmenih və Mixail von der Şulenburq bu həftə İkinci Dünya müharibəsinin başa çatması ilə bağlı anım tədbirlərində iştirak etmək üçün Moskvaya gedəcəklər. Çexiya, Slovakiya və Kiprdən olan deputatların da Moskvaya gedəcəkləri gözlənilir", - məlumatda qeyd olunub.

Qeyd edək ki, parad zamanı internetdən istifadə məhdudlaşdırılacaq. Kreml məhdudiyyəti anlayışla qəbul etməyə çağırıb. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov jurnalistlərə deyib ki, söhbət hansısa nasazlıqdan yox, mobil internetin fəaliyyətinə tətbiq edilən məhdudiyyətdən gedir.



Kremlin sözçüsü əlavə edib ki, qələbənin ildönümü ilə əlaqədar xarici ölkələrdən gələn qonaqların Moskvada olduğu müddətdə, yəni may ayının 10-na qədər insanlar mobil internetin fəaliyyətində məhdudiyyətlərə hazır olmalıdır.

Ukrayna dronlarının Qələbə günü ərəfəsində Rusiya regionlarına kütləvi hücumları Kiyev üçün ədalətli addımdır. Bunu Ukrayna Prezidenti Vladimir Zelenski deyib. "Artıq Rusiya hava məkanının da narahatlıq hiss etməsi ədalətlidir", - Zelenski bildirib.

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Əfv hazırlığı tamamlanır

## Gələn həftə Əfv Məsələləri Komissiyasının növbəti iclası keçiriləcək

**2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi fonunda cəmiyyətdə əfv gözləntiləri artsa da, bu, yalnız Azərbaycan Prezidentinin qərarından asılıdır. Bu barədə Əfv Məsələləri Komissiyasının üzvü Əliməmməd Nuriyev məlumat verib.**

Onun sözlərinə görə, hazırda Əfv Məsələləri Komissiyasının iclasları davam edir. Artıq altı iclas keçirilib, qarşıda növbəti iclas gözlənilir. "Bu iclasların keçirilməsi mümkün əfv sərəncamı üçün ilkin mərhələ kimi dəyərləndirilə bilər. Lakin yekun qərarın tarixi barədə qəti fikir söyləmək hüquqi baxımdan məqsədəuyğun deyil. Çünki bu, Prezidentin müstəsna konstitusiya səlahiyyətidir və son qərar məhz onun tərəfindən qəbul edilir", - deyə Ə.Nuriyev bildirib.

Qeyd edək ki, Prezident yanında Əfv Məsələləri Komissiyasının altıncı iclasında 100-dən çox müraciətə baxılıb. Bununla da komissiya tərəfindən baxılan müraciətlərin sayı 700-ü keçib.

Prezident yanında Əfv Məsələləri Komissiyasının 2025-ci il üçün növbəti iclası mayın 16-da keçiriləcək. Bu barədə Əfv Məsələləri Komissiyasının üzvü Rəşad Məcid məlumat verib. Qeyd edək ki, bu, komissiyanın sayca 7-ci iclası olacaq.

Etibarlı mənbələrdən "Yeni Müsavat"a verilən məlumata görə, 28 May-Respublika günü münasibətilə əfv fərmanının verilməsi gözlənilir.

**Hüquq üzrə fəlsəfə doktoru Əlövsət Allahverdiyev də "Yeni Müsavat"a şərhində bildirdi ki, bu ay ərzində sərəncam verilməsi daha real görünür:** "Əfv sərəncamının verilməsi Azərbaycan Prezidentinin müstəsna səlahiyyətidir. Bu sərəncama əsasən müvafiq şəxslərə münasibətdə cəzanın azaldılması, yaxud cəzasının çox hissəsini çəkmiş şəxslərin azad olunması istiqamətində tədbirlər həyata keçirilir. Əfv sərəncamı cəza siyasətinin humanistləşdirilməsi istiqamətində atılan addımlardan biri kimi dəyərləndirilir. Cəmiyyət hər zaman əfv sərəncamının imzalanmasını gözləyir. Aydın məsələdir ki, xüsusilə məhkumların ailələri bu xəbəri səbirsizliklə gözləyirlər. Hesab edirəm ki, ehtiyatsızlıqdan cinayət törətmiş şəxslərin əfv sərəncamına düşməsi sevindirici hal kimi qarşılana bilər. Proses artıq yekunlaşıb, müraciətlər təqdim olunub. Yaxın günlərdə sərəncam verilərsə, siyahı açıqlanacaq".



Xatırladaq ki, sonuncu əfv sərəncamı 2024-cü ilin may ayında imzalanıb. Belə ki, mayın 25-də Prezident İlham Əliyev "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" sərəncam imzalayıb.

Sərəncama əsasən, məhkum olunmuş bir sıra şəxslərin, onların ailə üzvlərinin, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin Azərbaycan Respublikasının Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxaraq, məhkumların şəxsiyyətini, səhhətini, ailə vəziyyətini, törətdikləri cinayətlərin xarakterini və ictimai təhlükəlilik dərəcəsini, cəza çəkdikləri müddəti və həmin müddətdə davranışlarını nəzərə alaraq, humanizm prinsipləri əsas götürülərək ümumilikdə 154 nəfər əfv edilib.

Sənədə əsasən, azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş 63 nəfər cəzasının çəkilməmiş hissəsindən azad edilib, 52 nəfərin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb.

Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş və cəzasının çəkilməsi təxirə salınmış 1 nəfər cəzadan azad edilib. Həmçinin, azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 28 nəfər cəzalarının çəkilməmiş hissəsindən azad olunub. Azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 3 şəxsin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb.

Eləcə də islah işləri cəzasına məhkum edilmiş 2 nəfər cəzanın çəkilməmiş hissəsindən, cərimə cəzasına məhkum edilmiş 4 nəfər isə cəzadan azad edilib. Həmçinin azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş və cəzasını çəkmiş 1 şəxsin məhkumluğu götürülüb.

❑ **Nigar HƏSƏNLİ,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 80 (8690) 9 may 2025




# Parlament Heydər Əliyevlə bağlı xüsusi iclas keçirdi

## Spikerin müəllifi olduğu "İlk milli Konstitusiyamız və Suverenliyimiz" adlı sənədli film nümayiş etdirildi

**Mayın 8-də Milli Məclisin xüsusi iclası keçirildi. "Konstitusiya və Suverenlik İli"nə həsr olunan "Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusuna həsr olunan iclasda spiker Sahibə Qafarova giriş nitqi ilə çıxış etdi.**

Sədr bildirdi ki, Milli Məclisin bugünkü xüsusi iclası "Konstitusiya və Suverenlik İli"nə həsr olunub: "Onun Ümummilli lider Heydər Əliyevin doğum günü ərəfəsində keçirilməsi iclasımıza xüsusi əhəmiyyət verir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması ölkəmizin həyatında üç mühüm dönüş nöqtəsinin tarixi əhəmiyyətini ifadə edir. Müstəqil dövlətimizin ilk konstitusiyasının qəbul edilməsi, İkinci Qarabağ müharibəsinin və antiterror əməliyyatının qələbə ilə başa çatdırılması, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunması xalqımızın taleyi ilə bağlı olan müstəsna əhəmiyyətli hadisələrdir". **S.Qafarova qeyd etdi ki, müasir Azərbaycanın tarixi Ulu öndər Heydər Əliyevin milli qurtuluşun və davamlı inkişafın təcəssümünə çevrilmiş fəaliyyəti ilə qırılmaz surətdə bağlıdır:** "Ulu öndər xalq və vətən yolunda göstərdiyi misilsiz xidmətləri ilə öz adını Azərbaycan tarixinə qızıl hərflərlə yazmışdır. Heydər Əliyev şəxsiyyəti hər bir azərbaycanlı üçün müdriklik, əzmkarlıq və vətənə sədaqət rəmzidir. Onun ölməz ideyaları bugünkü və gələcək nəsillərin əməllərində yaşayır və daim yaşayacaq". **Spiker xatırlatdı ki, 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan mürəkkəb çağırışlar qarşısında qalmışdı:** "Dövlət idarəçiliyində yol verilən kobud səhvlər, həyatın bütün sahələrini bürüyən dərin böhran, Ermənistan Silahlı Qüvvələri tərəfindən torpaqlarımızın işğal edilməsi, milli həmrəyliyin pozulması, separatizm meyillərinin güclənməsi, vətəndaş müharibəsi təhlükəsinin yaranması müstəqil dövlətin varlığını ciddi təhlükə altına almışdı. Məhz belə bir ağır şəraitdə xalqın təkidli tələbi ilə 1993-cü il iyunun 15-də Ümummilli lider Heydər Əliyevin ali dövlət hakimiyyətinə qayıtması, Ali Sovetin sədri və 4 ay sonra xalqın yekdil iradəsi ilə Prezident seçilməsi destruktiv proseslərin və hadisələrin qarşısını almağa, ölkədə vəziyyəti sabitləşdirməyə imkan verdi. Heydər Əliyev millətin taleyi üçün məsuliyyəti üzərinə götürdü və sarsılmaz iradəsi, zəngin dövlətçilik təcrübəsi və siyasi nüfuzu sayəsində qardaş qırğınının qarşısını almağa, xalqı azərbaycançılıq ideyası ətrafında birləşdirməyə, dövlət müstəqilliyimizi xilas etməyə nail oldu".

**Sədr vurğuladı ki, Ulu öndərin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də onun rəhbərliyi ilə müstəqil dövlətimizin ilk konstitusiyasının hazırlanmasıdır:** "1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş konstitusiyamız dünyanın ən demokratik qanunları ilə müqayisə oluna bilər. Azərbaycanın əsas qanunu ölkəmizdə hüquqi, demokratik və dünyəvi dövlət quruculuğunun proqram sənədidir. Bu fikrin düzgünlüyü özünü ilk növbədə onda göstərir ki, dövlətimiz bütövlükdə konstitusiya əsasında qurulmuşdur və fəaliyyət göstərir. Konstitusiyada hüquqi dövlətin əsas prinsiplərindən biri olan hakimiyyət bölgüsü geniş əks etdirilib, qanunvericilik hakimiyyətinin Milli Məclis tərəfindən həyata keçirilməsi müəyyən edilib. Bu baxımdan, eyni zamanda Ulu öndərin peşəkar qanunvericilik orqanının formalaşmasına verdiyi töhfələri nəzərə alaraq, biz qürurla söyləyirik ki, Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin memarı və qurucusu, konstitusiyamızın yaradıcısı olduğu kimi, bugünkü Azərbaycan parlamentinin də banisidir".

S.Qafarova Heydər Əliyevin Azərbaycanla bağlı misilsiz xidmətlərindən danışdıqdan, hazırda ölkəmizin uğurla inkişaf yolu keçdiyini söyləyəndən sonra parlament sədrinin müəllifi olduğu "İlk milli Konstitusiyamız və Suverenliyimiz" adlı sənədli film nümayiş etdirildi. Milli Məclis Aparatında hazırlanmış bu sənədli film Azərbaycanın ilk Konstitusiyasının qəbulunun 30 illiyinə, Vətən müharibəsində Azərbaycan xalqının Zəfərinin 5-ci ildönümünə, ölkənin ərazi bütövlüyünün və suverenliyinin bərpasına həsr olunub.

**Komitə sədri Fazil Mustafa** Milli Məclisin xüsusi iclasında çıxışı zamanı bir sıra maraqlı məqamlara toxundu. Millət vəkili Ümummilli lider Heydər Əliyevin ölkə və xalq qarşısında xidmətlərindən bəhs etdi. Bildirdi ki, biz bu gün 44 günlük savaşdan geri dönəndə bu proseslərin hamısının mənbəyində Heydər Əliyevin atdığı hansısa təməli görə bilirik. F.Mustafa çıxışında da etirafa da yer ayırdı: "Bizim özümüz - vaxtilə Heydər Əliyevə qarşı müxalifətdə olan insanlar belə bu yeniləşmiş baxışı qəbul etdik və səmimi şəkildə Azərbaycan dövlətinin o dönəmində həqiqətən onun gördüyü müstəsna işləri dərk etmiş olduq". **Komitə sədri H.Əliyevin uzaqgörən siyasətindən və tarixi qərarlarından bəhs edərkən maraqlı paralellik də apardı**: "Biz 1994-cü ildə neft siyasəti ilə Azərbaycan cəmiyyətinin, dövlətinin qorunması məsələsini həll etdik. 30 il sonra Zelenski gecikmiş şəkildə ölkənin mümkün sərvətləri ilə müstəqilliyi və təhlükəsizliyi qorumağın yollarını axtarır. Tarixi müqayisə onu göstərir ki, haradasa 30 il gecikmə hansısa dövlətin müstəqilliyini itirməyə qədər gətirib çıxara biləcək prosesləri körükləyir".

**Deputat Tahir Mirkişili dedi ki, 30 il bundan öncə Ulu öndər Heydər Əliyevin müəllifliyi ilə Azərbaycan Konstitusiyasının qəbul edilməsi ilə ölkənin iqtisadi inkişafı üçün mühüm təməl yarandı:** "Bu ali qanun iqtisadi sahədə bir sıra əhəmiyyətli irəliləyişlərə zəmin hazırladı". T.Mirkişili qeyd etdi ki, Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilmiş konstitusiya Azərbaycanın müasir iqtisadi sisteminin formalaşmasında, iqtisadi islahatların həyata keçirilməsində və ölkənin iqtisadi inkişaf strategiyasının müəyyənləşdirilməsində mühüm rol oynadı: "Belə bir möhkəm və dayanıqlı zəmin əsasında qurulan Azərbaycan iqtisadiyyatı sonrakı dövrlərdə bir çox iqtisadi böhranlaranlardan və sınaqlardan uğurla çıxdı. Möhtərəm prezident cənab İlham Əliyevin rəhbərliyi ilə uğurlar icra olunan, genişlənən iqtisadi siyasət nəticəsində Azərbaycan iqtisadiyyatı dəfələrlə böyüdü, dünyaya açıldı, müasirləşdi və müstəqil oldu. Resurslardan səmərəli istifadə və geosiyasi əlaqələrin uzaqgörənliklə qurulması Azərbaycanı dünyada iqtisadi cəhətdən ən müstəqil ölkələrdən birinə çevirdi".

**T.Mirkişili bildirdi ki, bütün bu iqtisadi uğurlar əldə etdiyimiz iqtisadi imkanları Azərbaycanın ən qədim və ən ağrılı problemi olan Qarabağ probleminin həllinə yönəltməyə imkan yaratdı:** "İqtisadi müstəqilliyimiz sayəsində siyasi və hərbi potensialımızı xeyli artıraraq ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa etdik. Dövlət başçısı cənab İlham Əliyevin müqəddəs bayrağımızı Şuşada, Xankəndidə, Xocalıda və digər şəhərlərimizdə ucaltması Azərbaycan tarixinin ən qüruru və şərəfli səhifələri oldu. Beləliklə, Azərbaycan Konstitusiyasından niyyətləri bəyan etməklə başlayan bu yol Azərbaycanın suverenliyini tam bərpa edərək ölkəmizi uğurlu gələcəyə doğru aparmaqdadır. Bu yol Heydər Əliyev yoludur - indən sonra da Azərbaycan xalqına uğurlar, inkişaf və güclü olmağı vəd edən yeganə yoldur".

"Konstitusiyamızın qəbulu və suverenliyimizin bərpasının əsası məhz Ümummilli liderin yenidən hakimiyyəti qayıtması ilə formalaşdırıldı. 1991-1993-cü illərdə o zamankı hakimiyyətin yarıtmaz fəaliyyəti bütün sahələrdə kəskin böhrana, idarəetmədə ciddi nöqsanlara və anarxiyaya gətirib çıxarmaqla yanaşı, vətəndaşların ən adi konstitusion hüquqlarının qorunması ilə bağlı ciddi problemlərə səbəb oldu". **Bunu isə deputat Vüqar Bayramov söylədi. Əlavə etdi ki, o dövrdəki hakimiyyətin yaratdığı anarxiya o zaman ölkə konstitusiyasının qəbuluna imkan vermədi:** "Məhz 1993-cü ilin iyun ayında Milli Liderin yenidən hakimiyyətə qayıtması Azərbaycan üçün böyük zəfərlə imza atmanın təməlini formalaşdırdı. Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən, Qarabağı və Şərqi Zəngəzuru işğaldan azad edən gənclər Ulu öndər Heydər Əliyev məktəbinin, möhtərəm Prezident İlham Əliyev idarəçiliyinin yetirmələridir. Suverenliyimizin tam bərpasının banisi Milli Liderimiz, onu reallaşdıran isə Müzəffər Ali Baş Komandanımız və Şanlı Ordumuz oldu. Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi həyatında, eləcə də cəmiyyətin hər bir sferasında yeni bir dönüş yarandı. Ulu öndərin siyasi uzaqgörənliyi nəticəsində ictimai-siyasi həyatda stabilliyin əldə edilməsi ilə yanaşı, ölkə iqtisadiyyatının bərpası istiqamətində fəaliyyətlər sürətləndi". **Deputat bildirdi ki, hazırda Azərbaycan tarixinin ən şanlı günləri və ən parlaq səhifələri yaşanır:** "Azərbaycan MDB-də münaqişəyə məruz qalan ölkələr arasında ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən yeganə ölkədir. Bütün bunlar cənab Prezident İlham Əliyevin siyasi təmkini, beynəlxalq arenada böyük diplomatik nüfuzu, hərb meydanında qətiyyət və cəsarətli qərarlar sayəsində mümkün oldu. 27 il həsrətlə baxdığımız torpaqlarda bu gün böyük quruculuq işləri həyata keçirilir. İşğaldan azad olunan bütün digər ərazilərimiz kimi Füzuli rayonu da Azərbaycan Prezidentinin rəhbərliyi altında yeni bərpa və quruculuq mərhələsinə qədəm qoyub.

Böyük Zəfərdən keçən müddətdə Qarabağ və Şərqi Zəngəzurun bərpasına 18 milyard manatdan çox vəsait ayrılıb. Azərbaycan işğaldan azad olunan ərazilərimizi öz daxili maliyyə resurslarına bərpa edir və yenidən qurur. 2025-ci ilin dövlət büdcəsindən Qarabağın bərpasına 4 milyard manata yaxın vəsaitin ayrılması nəzərdə tutulur. 2026-cı ilin sonunadək həmin ərazilərimizdə 140 min vətəndaşımız məskunlaşacaq".

Xüsusi iclasın yekununda bəyanat qəbul olundu.

**Spiker Sahibə Qafarova parlamentin növbəti iclasının mayın 16-da keçiriləcəyini bildirdi.**

❑ Elşad PAŞASOY,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 80 (8690) 9 may 2025



# Ağ tüstünün həsrətində

Zamin HACI
zaminhaci@gmail.com

**Dünən mən bu cızmaqaranı eləyəndə katoliklər hələ öz papalarını seçməyi bacarmamışdı. 3 dəfə səsə qoymuşdular, lakin liderliyi əldə edən olmamışdı. İnşallah, 4-cüdə seçsinlər. Hamımız buna görə çox narahatıq. Çünki axırıncı papanı bizim xalçanın üstündə aparıb dəfn elədilər. Təzə papaya xalçanın ipliyini hazır eləmək üçün lazımdır ki, namizədin yaşını-başını bilək. Hana qurmaq vaxtaparan işdir.**

Burada haşiyə çıxaraq dünya katolisizmini də bütün başqa dinlər kimi "puç və əfsanə" saydığımı yazmaqdan özümü saxlamıram. Çağdaş dünyada, süni intellekt, internet, kosmik uçuşlar, kvant fizikası və sairə dövründə insanlar niyə belə əfsanələrə inansınlar ki? Üstəlik, harada qurdalasan bir çirkin işin altından hansısa din xadimi çıxır. Gah katolik keşiş Salmoniusun balaca oğlan uşaqlarına, gah da bizim milli Hacı Salmanın (bu halda isim lap dəqiqdir - hadisə Sulutəpə tərəflərdə olub, Salman müəllim də, deyəsən, türmədədir) azyaşlı qıza qarşı əxlaqsızlığı ifşa edilir.

Söz vaxtına çəkər, elə bugünlərdə Argentinada arxivləri bütün dünya üçün açıblar, Hitler Almaniyasından, 2-ci Dünya savaşından sonra ora qaçan faşist cəlladları haqda sənədlərlə hamı tanış ola bilər. İçlərində doktor Mengele, Adolf Eyxman kimi çox məşhur canilərin də olduğu bu tiplərin 1945-ci ildən sonra əvvəlcə İtaliyaya, sonra Güney Amerikaya, Argentina və başqa ölkələrə qaçıb gizlənməsində əsas iştirakçılardan biri məhz Vatikan, katolik kilsəsi olub. Saxta sənədlər veriblər ki, guya bu tiplər kilsə xadimləridir. Təsəvvür edin.

Hərçənd bizim üçün də qeyri-adi fakt sayılmaz, dinin dünyəvi cinayətlərdə iştirakını təsəvvür eləməyə ehtiyacımız yoxdur, Qarabağın Ermənistan tərəfindən işğalı zamanı əlində silah döyüşən Xankəndi yepiskopu Pargev Martirosyan, davanı nifrət dolu moizələriylə körükləyən Üçmüəzzin (Eçmiədzin) katolikosu Qaregin canlı şəkildə yadımızdadır. Biz tərəfdən din faktoru davada hər hansı rol oynamırdı, heç döyüşən mollaya da rast gəlinmirdi. Ancaq ermənilər hətta SSRİ dövründə, guya ateizmin rəsmi ideologiya sayıldığı zamanda Qarabağ kəndlərindəki bandit dəstələrini kilsə ayinləri ilə "xodlayıb" dinc azərbaycanlıları öldürməyə göndərirdilər. Təsadüfi deyil ki, onların döyüş zamanı rəsmi fərqlənmə nişanları da xaç simvolu olurdu. Məntiqlə, biz tərəfdən də döyüşçülər hansısa ay-ulduzu geyimlərinə, tankların, texnikaların üzərinə çəkməliydilər, lakin şəxsən mən belə faktı xatırlamıram. Nə yaxşı da çəkmədik. Çünki bizim üçün bu, dini dava deyildi.

Ancaq lap əvvələ qayıtsaq, mənim fikrim belədir ki, papanı seçmək üçün dünya katolikləri bizim milli Mərkəzi Seçki Komissiyasına müraciət eləsəydilər, bu qədər əzab-əziyyətə düçar olmazdılar. Məzahir müəllim birinci raunddan bütün məsələni kökündən həll edərdi, çıxıb gedərdi. Çünki biz milli seçkilərimizdə haçansa 2-ci, ən qorxuncu isə 3 və 4-cü raundların (!!!) olmasını xatırlamırıq. Ən yaxşısı papanın əvvəldən, seçkidən qabaq bilinməsi idi, əlbəttə, ancaq ta prosedur gərəyi ilə qapı bağlanıb, qarı... üzr istəyirəm, yepiskop və kardinallar otağa salınıbdırsa, lazımdır onların arasından kimsə təzə papa seçilsin. Görünür, Məzahir müəllimin başı gəliniylə qalmaqala qarışdığı üçün Romaya gedə bilməyibdir, yoxsa dəfələrlə şahidik, dünyanın hansı yerində olur-olsun, seçki keçirənlər hər zaman bizim MSK-dan müşahidəçilər, məsləhətçilər tələb edirlər, xahiş edirlər, yalvarırlar.

Hazırda bütün dünya katolikləri intizarla Sikstin kapellasının damından ağ tüstü çıxmasını gözləyir, çünki belə adət-ənənə vardır, kardinallar bağlı qapı arxasında təzə papa seçirsə, bu zaman bacadan ağ tüstü buraxılır. Seçki baş tutmursa, qara. Dünən artıq 3 dəfə qara tüstü buraxmışdılar. Məzahir müəllim də hər seçkini təşkil edəndə tüstüsü ərşə bülənd olur. Dünyanın hər yerindən bizim tüstümüz görünür.

Hesab edirəm hələ gec deyil, Məzahir müəllimi Sikstinə göndərməliyik.

# Ay-ulduzlu üçüncü bayrağımız

## Pakistan işğala görə uzun illər Ermənistanı dövlət kimi tanımayıb; Azərbaycanı dəstəkləyən bütün beynəlxalq sənədlərdə qardaş ölkənin imzası var

**44 günlük İkinci Qarabağ müharibəsi dövründə yaddaqalan məqamlardan biri də ölkə boyu hər yerdə - küçələrdə, binalarda, müxtəlif tədbirlərdə Azərbaycan və Türkiyə bayraqları ilə yanaşı üçüncü ölkənin də bayrağının qaldırılması idi. O bayraq Pakistanın idi. Pakistan 1990-cı illərin əvvəllərində Türkiyədən sonra Azərbaycanın müstəqilliyini tanıyan ikinci dövlət idi.**



Pakistan həmçinin Azərbaycanın bəzi ərazisini işğal etməsi faktına görə uzun illər Ermənistanı tanımayıb və onunla diplomatik əlaqələr qurmayıb. İkinci belə ölkə Türkiyədir. Rəsmi olaraq Pakistanı azərbaycanlılara və Azərbaycana yaxın edən təkcə dini və mədəni yaxınlıq deyil, hər iki ölkənin qarşılaşdığı siyasi problemlər də bənzərdir. Ona görə Azərbaycan Kəşmir məsələsində hər zaman Pakistanı dəstəkləyib. Bu mövqe ədalət, beynəlxalq hüquq və qardaşlıq əlaqələrimizə əsaslanır. İndoneziyadan sonra Pakistan ən böyük əhalisi olan (250 milyon) ikinci müsəlman dövlətidir.

1993-cü ilin aprelində, Kəlbəcərin işğal olunması məsələsi BMT-nin Təhlükəsizlik Şurasının müzakirəsinə çıxarılarkən Azərbaycanın ərazi bütövlüyünün bərpasını tələb edən 822 saylı qətnamənin qəbul edildiyi iclasa məhz Pakistan sədrlik edib. Azərbaycanın ərazi bütövlüyünü təsdiqləyən qətnamələr Pakistanın dəstəyi ilə qəbul olunub.

Azərbaycan Xarici İşlər Nazirliyi iki ölkə arasında hərbi əməliyyatların başlamasından sonra verdiyi bəyanatda Hindistanın Pakistan İslam Respublikasına qarşı hərbi hücumları pislədi. Rəsmi Bakı Pakistan xalqı ilə həmrəy olduğunu bildirdi.

**Azad Vətən Partiyasının sədri Akif Nağı hesab edir ki, Pakistanın Azərbaycanla hər zaman xoş münasibətləri olub:** "İkinci Qarabağ savaşında da bu dostluq tam şəkildə özünü göstərdi. Müharibə gedişində ölkəmizə tam dəstək verdilər. Hələ savaş başlayanda Ermənistanla bütün əlaqələri kəsdilər və açıq şəkildə bildirdilər ki, Ermənistanı adında dövlət tanımırıq. Ona görə də, bu məsələdə təbii ki, Azərbaycan Pakistanın yanında olmalıdır.

Amerika zamanında Pakistanın arxasında dayanırdı. SSRİ isə Hindistanla ənənəvi dostluq münasibətləri saxlayırdı. Amma 90-cı illərdən vəziyyət dəyişdi, Pakistan ABŞ-dan uzaqlaşdı, Türkiyə və Azərbaycanla yaxın əlaqələr qurdu. Daha sıx şəkildə müsəlman-türk birliyinə yaxınlaşdı. Hazırda ölkələrarası böyük bir konfliktin yaranması gözlənilmir. Amerikanın marağı ola bilər ki, bu gərginliyi silahlı qarşıdurmaya çevirsin, regionda münaqişə ocağı yaratsın. Pakistan və Hindistanda nüvə başlıqları demək olar ki, eynidir. Əhali cəhətdən Hindistan kifayət qədər irəlidədir. Silahlı qüvvələrin sayı da Hindistanın xeyrinədir. Amma sərhəd qarşıdurmasında məhdud kontingent iştirak edir. Burada Pakistan ordusunun üstünlüyü var. Sərhəd keçid məntəqələrində Hindistan ağ bayraq qaldırıb, danışıqlara getmək istəyir. Hərbi cəhətdən Pakistan Hindistandan üstündür. Bu baxımdan böyük ehtimalla məsələ yenidən sakit məcraya qayıdacaq".

**MCP-nın sədr müavini, politoloq Məhəmməd Əsədullazadə Pakistanın heç bir halda Hindistan qarşısında geri çəkilməyəcəyini qeyd etdi:** "Pakistanla Azərbaycan arasında dostluq münasibətləri uzun illərdir ki, davam edir. İki ölkə arasında hərbi texniki, təhlükəsizlik, müdafiə, humanitar və digər sahələrdə əməkdaşlıq uğurla davam edir. Pakistanın Birinci və İkinci Qarabağ müharibəsində Azərbaycana siyasi dəstəyi sarsılmaz olub. Azərbaycan xalqı daima bu dəstəyi görüb və bu ölkəni qardaş kimi qəbul edir. Pakistanda hökumətlərin tez-tez dəyişməsinə baxmayaraq daima Azərbaycanla eyni xətt üzrə əməkdaşlığı inkişaf etdirirlər. Pakistan-Azərbaycan əlaqələri günün reallığıdır və bu əlaqələr digər ölkələr üçün də nümunə ola bilər. İki ölkə arasında növbəti mərhələdə strateji müttəfiqlik müqaviləsinin bağlanmasına ehtiyac var. Ölkələrarası münasibətlərin dinamikası yeni dünya siyasi nizamı müstəvisində uğurla davam edəcək. Pakistan uzun illərdir ki, Hindistanın işğalı və hərbi təhdidləri ilə üzləşib. Azərbaycan xalqı bu müharibədə qardaş Pakistanın yanındadır. Bu gün Hindistan təkcə Cənubi Şərqi Asiyada təhlükəsizliyi təhdid etmir. Cənubi Qafqazda Ermənistanı silahlandırmaqla regionda sülhə mane olur. Hindistan təcavüzkar ölkə kimi çıxış edərək, beynəlxalq təhlükəsizliyə mane olur. Xüsusilə Hindistan son illərdə hərbi texniki və iqtisadi cəhətdən müəyyən inkişafa nail olub. Baş nazir Modi millətçi və islamafob sistem qurub.

Hindistan iqtisadiyyatı və hərbi sənayesinin inkişafı millətçi Modini Pakistana qarşı hərbi əməliyyatlar keçirməyə sövq edib. Həmçinin Pakistan və Çin əlaqələrinə zərbə vurmağa çalışır. Bununla regionda öz mövqeyini gücləndirməklə, beynəlxalq aktor olmağı hədəfləyir. Bunun üçün Pakistan üzərində hərbi qələbəni təmin etməyə çalışır. Amma baş verəcək müharibə hər iki tərəfin üstünlük əldə etməsinə gətirib çıxarmayacaq. Əgər Hindistan Pakistana quru əməliyyatları həyata keçirərsə, müəyyən ərazilərdə irəliləyişlər əldə edərsə, Çin müharibəyə qarışa bilər. Çin və Türkiyə bu müharibədə Pakistanın məğlub olmasına imkan verməyəcək. Hindistan bu müharibəni davam etdirsə də, məğlub olan tərəf olacaq. Pakistan bu hərbi eskalasiyada Azərbaycan dövlətinin dəstəyini görür. Bu məsələnin beynəlxalq müstəviyə daşınması və Pakistana dəstəyin verilməsi istiqamətində mühüm addımlar atılır. İki ölkə arasında əlaqələrin inkişafı istiqamətində mühüm addımlar bundan sonra da atılacaq. Pakistan nüvə silahı olan yeganə müsəlman ölkəsidir. Azərbaycan gələcəkdə nüvə sahəsində işlər həyata keçirərsə, Pakistan bu istiqamətdə Azərbaycana ciddi dəstək verəcək. Yeni dünya siyasi nizamında dövlətlərin bir-birilərinə sarsılmaz dəstəyi labüddür. Pakistanın Ermənistanı uzun illər işğal faktoruna görə tanımaması yalnız qardaşlara xasdır. Məhz rəsmi İslamabad qardaşlıq nümunəsi kimi çıxış edir. Pakistanın bu çətin günlərində Azərbaycan bütün sahələrdə qardaşının yanındadır".

❑ Cavanşir ABBASLI,
"Yeni Müsavat"

# Ermənistanı qorxuya salan Gümrü müqaviləsi

## İrəvanın Polşadakı keçmiş səfirindən açıqlama, Azərbaycandan sərt reaksiya...

**Ermənistanın Polşadakı keçmiş səfiri Edqar Qazaryan diqqətçəkən açıqlama verib. O, Gümrü müqaviləsinin ləğv olunaraq Ermənistanın Qərbi Azərbaycan adlandırılacağını iddia edib: "Türkiyə Gümrü müqaviləsindən çıxacaq. Artıq Ermənistanın Qərbi Azərbaycan adlandırılması qərarı verilib. Proses tamamlandıqdan sonra Ermənistanla Rusiya sərhəd xidməti arasındakı müqavilə də ləğv ediləcək".**

Xatırladaq ki, Gümrü müqaviləsi Türkiyə ilə Ermənistan arasında 1920-ci il dekabrın 2-dən 3-nə keçən gecə imzalanıb. Bu 18 maddəlik müqaviləyə uyğun olaraq 1920-ci ilin sentyabr-dekabr ayları arasında türk ordusu ilə erməni silahlı birləşmələri arasında baş verən hərbi əməliyyatlara son qoyulmalı idi. Müqavilənin şərtlərinə əsasən, Ermənistan hökuməti Türkiyə torpaqlarına iddiasından əl çəkməli, Ermənistan ərazisindən qovulmuş müsəlmanların qayıtması üçün şərait yaratmalı idi. Lakin daşnak hökumətinin nümayəndələri dekabrın 2-dən 3-nə keçən gecə Gümrüdə müqaviləni imzalamamışdan bir neçə saat əvvəl, İrəvandakı daşnak hökuməti Sovet Rusiyasının nümayəndəsi Leqranla Ermənistanda sovet hakimiyyətinin qurulması barədə müqavilə imzalayırlar. Bununla da 4 dekabrda İrəvana Sovet Rusiyasının ordu hissələri daxil olur. Nəticədə, Ermənistanda qurulan sovet hökuməti Gümrüdə imzalanmış müqaviləni tanımaqdan imtina edir və onun qüvvədən düşdüyünü elan edir.

Ermənistan niyə indi qorxuya düşüb, bu müqavilənin gündəmə gətirilməsində məqsəd nədir?

**"Alyans" Araşdırmalar Mərkəzinin rəhbəri Abutalıb Səmədov** "Yeni Müsavat"a bildirdi ki, Ermənistanın Polşadakı keçmiş səfiri Edqar Qazaryan bu gün müxalifətdədir və çox cahil bir insandır. Onun sərsəmləmələrini erməni mediasının nədən ciddiyə alması məlum deyil: "Çünki birincisi, Gümrü müqaviləsi imzalanandan sonra bir ay ərzində təsdiq olunmalıydı və təsdiq olunmadı. Sonradan sovet Ermənistanının hökuməti bu müqaviləni ləğv elədi. Ondan sonra Türkiyə ilə Rusiya arasında Kars və Moskva müqavilələri imzalandı. Yəni bu məsələlərin indiki proseslərə nə aidiyyəti ola bilər? Əgər Türkiyənin Ermənistanı Qərbi Azərbaycan adlandırmaq planı olsa, buna qüvvəyə minməmiş və ləğv edilmiş Gümrü müqaviləsi mane ola bilərmi? Üstəlik, bununla Rusiya ilə Ermənistan arasında imzalanmış Sərhədlərin birgə qorunması haqqında müqavilənin nə əlaqəsi var? Bu müqavilə məlumdur ki, Azərbaycan Ordusunun 1992-ci ilin iyununda başlayan uğurlu əməliyyatlarından sonra çarəsiz duruma düşən Ermənistan prezidenti Levon Ter-Petrosyan hakimiyyəti ilə Rusiya arasında 30 sentyabr 1992-ci ildə imzalandı. Və bu, müddətsiz bir müqavilədir. Bunu kim qüvvədən sala bilər? Əgər bu müqavilənin qüvvədən düşməsi məsələsi qaldırılsa, müqavilənin özündə nəzərdə tutulduğu kimi, bu barədə Ermənistan və Rusiya razılığa gəlməlidir. Bunun Türkiyə ilə nə əlaqəsi ola bilər? Yeni Ermənistanda müxalifətin bu qədər hazırlıqsız, bu qədər səviyyəsiz olduğu bir daha sübut olunmuş olur".

**A.Səmədov qeyd etdi ki, Ermənistanı qorxudan əsassız narahatlıqlar var:** "Məlumdur ki, daim müxtəlif səviyyəli şəxslər, həm hakimiyyətdə, həm müxalifətdə olan siyasətçilər tərəfindən Azərbaycanın Ermənistanı guya işğal etmək planlarının olduğu barədə iddialar səslənir. Baxmayaraq ki, dəfələrlə Azərbaycan elan edib ki, qonşuların, o cümlədən Ermənistanın torpaqlarında gözü yoxdur, Praqada imzalanmış sənəd bunun təminatını verir, ermənilər yenə də əsassız narahatlıqlarını davam etdirirlər. Azərbaycan Ermənistanın ərazi bütövlüyünü tanıyır və bu, ərazi bütövlüyünü sual altına qoymur. Delimitasiya və demarkasiya işləri hazırda aparılır. Belə olduğu halda, Edqar Qazaryan kimilərinin səviyyəsiz bəyanatlar verməsi, guya




Azərbaycanın Türkiyə ilə birlikdə Ermənistan torpaqlarını işğal etmək planlarının olduğunu söyləməsi və bunu gətirib Gümrü müqaviləsi ilə əlaqələndirməsi anormallığın, səviyyəsizliyin göstəricisidir. Sadəcə olaraq, erməni əhalinin bir qrupu içərisində bu cür əsassız qorxular var və bu qorxuları ilk növbədə yaradan Ermənistanın Qazaryan kimi siyasətçiləridir. Bu qorxuların aradan qalxması üçün sülh sazişi imzalanmalıdır. Sülh sazişinin imzalanması üçün isə Azərbaycana olan ərazi iddiasından imtina olunmalıdır".

**Politoloq Yusif Bağırzadə** bildirdi ki, Konstitusiya Məhkəməsinin keçmiş aparat rəhbəri, Ermənistanın Polşadakı keçmiş səfiri Edqar Qazaryan Paşinyan hakimiyyətinə qatı müxalif mövqeyi ilə yanaşı, qatı anti-Azərbaycan mövqeyi ilə də tanınan şəxsdir. O, davamlı şəkildə öz absurd və populist çıxışları ilə Azərbaycan və Ermənistan arasında aparılan danışıqları, delimitasiya prosesini hədəfə alan mövqe ortaya qoyur: "O, hətta 10 noyabr 2020-ci ildə imzalanan üçtərəfli bəyanatı Paşinyan tərəfindən Ermənistan maraqlarının satılması kimi təqdim edən biridir. İndi də kommunikasiya xətlərinin blokadadan çıxarılması, konstitusiya dəyişikliyi ilə bağlı ən kəskin mövqedə dayanır. Onun hələ 2021-ci ildə Zəngəzur dəhlizi ilə bağlı müzakirələrin aparıldığı vaxt Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanı necə hədəf aldığını, Qriqoryanın Azərbaycan maraqlarından çıxış etdiyini deməsini və hətta sülh olacağı halda Armen Qriqoryanın Azərbaycanın Ermənistandakı səfiri ola biləcəyi ilə bağlı dediklərini yəqin ki, çoxları xatırlayır. Bir sözlə, bu adam Azərbaycanla sülh istiqamətində atıla biləcək istənilən mövqeyə qarşıdır və Paşinyan hakimiyyətini də əsasən bu istiqamətdə hədəfə alır".

**Qazaryanın budəfəki sayıqlamalarına, yəni Türkiyənin Gümrü müqaviləsindən çıxacağı ilə bağlı dediklərinə gəldikdə isə politoloq dedi ki, bu fikirlər sözün əsl mənasında cəfəngiyyatdır. Çünki Gümrü müqaviləsi onsuz da qüvvədən düşüb:** "Məlumdur ki, həmin müqavilədə Ermənistan hökumətinin Türkiyə torpaqlarına iddiasından əl çəkməsi, Ermənistan ərazisindən qovulmuş müsəlmanların qayıtması üçün şərait yaradılması kimi müddəalar var idi. Müqavilədə həmçinin Ermənistanın sayı 1500 nəfərdən çox olmayan bir orduya malik olması qeyd olunurdu və o da göstərilirdi ki, bu ordu 8 ədəddən çox topa malik ola bilməz, pulemyotların isə maksimal sayı 20 dən çox olmamalıdır. Həmin müqavilə ilə Ermənistan "Sevr müqaviləsi"nin qüvvədən düşməsini qəbul edərək öz nümayəndə heyətlərini Avropadan və ABŞ-dan geri çağırmağı öz üzərinə götürürdü, Türkiyə Ermənistan dəmir yollarının nəzarətini öz əlinə alırdı və Ermənistan ərazisində "hərbi tədbirlər görmək" imkanını əldə edirdi. Lakin İrəvandakı daşnak hökuməti Sovet Rusiyasının nümayəndəsi Leqranla Ermənistanda sovet hakimiyyətinin qurulması barədə müqavilə imzaladıqdan və dekabrın 4-də İrəvana Sovet Rusiyasının ordu hissələri daxil olduqdan sonra Ermənistanda qurulan sovet hökuməti Gümrüdə imzalanmış müqaviləni tanımaqdan imtina edir və onu qüvvədən düşmüş elan edir. Bundan sonra Ermənistanla Türkiyə arasındakı sərhəd məsələsi 1921-ci ildə Sovet Rusiyası ilə Türkiyə arasında imzalanmış Qars müqaviləsi ilə tənzimləndi. Bir diplomat olaraq Qazaryan yəqin ki, bunları bilməmiş deyil. Və bilə-bilə bu cür açıqlamalarla çıxış etməsi, sadəcə, aranı qarışdırmağa və tarixdən bixəbər olan kütləni Paşinyanın əleyhinə səfərbər etməyə çalışır".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Qazağın kəndlərinə görə ermənilərə kompensasiya

## Tavuş vilayətinin qubernatoru bunun üçün komissiya yaradıb

**"Azərbaycana yeni ərazilərin verilməsi üçün hökumət gizli bir məqam-torpaq mülkiyyətçilərinə dövlət büdcəsindən kompensasiya verilməsi barədə qərar qəbul edib".**

"Cebheinfo.az"ın məlumatına görə, Tavuş vilayətindən olan jurnalist Voskan Sərkisyan belə yazıb.

Voskan Sərkisyan yazır ki, 2025-ci ilin dövlət büdcəsinə Tavuş vilayətindən Azərbaycana icarəyə verilmiş torpaq sahələrinin sahiblərinə pul kompensasiyasının ödənilməsi ilə bağlı dəyişiklik edilib. "Bundan əvvəl Ermənistanla Azərbaycan arasında demarkasiyanın yeni mərhələsinin Ermənistan, Azərbaycan və Gürcüstan sərhədində baş tutacağı rəsmən açıqlanıb. Söhbət Noyemberyan icmasının sərhəd zonasından - Cənubi Qafqazın üç respublikasının




sərhədlərinin birləşdiyi Qoxb və Qalaça (Berdavan) kəndlərinin ərazisindən gedir. Lakin çox güman ki, Karvansaray (İcevan) bələdiyyəsinin Uzunlu Poçt qəsəbəsi (Kayan kəndi), Önüt kəndi (Ayqeovit), həmçinin Barana bələdiyyəsinin Əskipara kəndindən (Noyemberyan) ərazilər Azərbaycana veriləcək.

Bu ərazilərin verilməsi nəticəsində keçmiş sovet dövründən qalan, əvvəllər azərbaycanlıların yaşadığı Sofulu və Barxudarlu, həmçinin Yuxarı Əskipara kəndlərinin ərazisində yolların çəkiləcəyi gözlənilir. Təsadüfi deyil ki, son vaxtlar Ermənistan Silahlı Qüvvələrinin minatəmizləmə əməliyyatları zamanı aşkar olunmuş minaların məhv edilməsi üçün Uzunlu Poçt qəsəbəsi rayonunda partlayıcı işlərin aparılması həyata keçirilib", - deyə Sərkisyan qeyd edib.

Sözügedən məlumat Azərbaycan-Ermənistan dövlət sərhədinin delimitasiyası ilə bağlı növbəti prosesə hazırlıq getdiyindən xəbər verir. Delimitasiya işlərinin 2024-cü ildə olduğu kimi bu dəfə də Qazax rayonunun Tavuş vilayəti arasındakı şərti sərhəd xətti istiqamətində aparılacağı gözlənilir.

Prosesin hansı illərin xəritələri əsasında həyata keçiriləcəyinə dair hələlik məlumat verilmir. Lakin delimitasiyanın istər 1976-cı ilin, istərsə də əvvəlki illərin xəritələri əsasında aparılmasından asılı olmayaraq, sovet dövründə Qazax rayonunun qanunsuz olaraq Ermənistana verilmiş torpaqlarının geri qaytarılması üçün siyasi və hüquqi zəmin yaranıb. Ona görə söhbət heç də Ermənistana məxsus hansısa ərazilərin Azərbaycana verilməsindən getmir. Ermənistan Azərbaycana məxsus torpaqlara yiyələndikdən sonra orada qanunsuz məskunlaşma aparıb.

Hətta ötən il Ermənistan Dövlət Kadastr Komitəsi həmin sakinlərə saxta sənədlər əsasında torpaq sahələrinin verildiyini və onların bu ərazidə hər hansı mülkiyyət hüququnun olmadığını rəsmən bəyan etmişdi. Növbəti delimitasiya prosesində də çox güman ki, kompensasiya məhz qanunsuz məskunlaşmış sakinlərə ödəniləcək.

Digər tərəfdən, sözügedən məqalədən aydın olur ki, delimitasiya zamanı Qazax rayonunun işğal altında olan Sofulu, Barxudarlı və Yuxarı Əskipara kəndləri Azərbaycana qaytarılacaq.

Həmin kəndlərin eyni vaxtda, yoxsa iki mərhələdə qaytarılacağı hələlik dəqiq bəlli deyil. Yəni birinci mərhələdə Sofulu və Barxudarlı, ardınca isə Yuxarı Əskiparanın işğalına son qoyula bilər. Bütün hallarda həmin yaşayış məntəqələrində qanunsuz məskunlaşmış ermənilər ərazini tərk etməlidir.

Qeyd edək ki, işğal dövründə hər üç kəndin torpaq sahələri ermənilər tərəfindən özbaşına mənimsənilib. İndi onların torpaqları əsl sahibinə qaytarılmasının vaxtı çatıb.

❑ **"Yeni Müsavat"**

Yeni MÜSAVAT
N 80 (8690) 9 may 2025



## Müharibədən 300 mini qayıtmışdı, indi 18-i sağdır

### 1941-1945-ci illər müharibəsində 300 min azərbaycanlı həlak olub

**Bu gün İkinci Dünya müharibəsindəki qələbənin 80-ci ildönümü tamam olur. Prezident İlham Əliyevin 21 aprel 2025-ci il tarixli sərəncamına əsasən, 1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına və sərəncamda nəzərdə tutulan digər şəxslərə birdəfəlik maddi yardımların ödənişi həyata keçirilib.**

Sərəncama uyğun olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həmin müharibənin iştirakçılarının hər birinə 2500 manat birdəfəlik maddi yardım ödənilib.

İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadları, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslər, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçiləri, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslər, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarının hər birinə isə 1250 manat birdəfəlik maddi yardım ödənilib.

Sərəncam İkinci Dünya müharibəsi iştirakçıları və digər müvafiq şəxslərdən ibarət ümumilikdə 2340 şəxsi əhatə edib və birdəfəlik maddi yardımlar onların bank hesablarına köçürülüb.

Məlumdur ki, İkinci Dünya müharibəsində faşizm üzərində qələbənin qazanılmasında 600 mindən çox azərbaycanlı da iştirak edib. Onların yarısı - 300 min nəfəri müharibədə həlak olub. 300 min azərbaycanlı isə müharibədən sağ qayıdıb...

Müharibənin bitməsindən 80 ilə yaxın vaxt keçib, bəs ölkəmizdə bu savaşın iştirakçılarından neçə nəfəri sağ qalıb?

Dövlət Statistika Komitəsinin məlumatına görə, 1941-1945-ci illər müharibəsi iştirakçılarının sayı 18 nəfərdir. Onların aldığı Prezident təqaüdünün orta aylıq məbləği isə 330 manata bərabərdir.

Qeyd edək ki, İkinci Dünya müharibəsi iştirakçıları Prezidentin aylıq təqaüdləri (əlillik dərəcəsinə uyğun 500 manat, 400 manat və 330 manat) və aylıq pensiya ilə təmin olunurlar.

# Ən güclü ordular sırasında möhkəmlənən yerimiz

## Azərbaycan Ordusu mühüm meyarlar üzrə ön sıralarda



**Dünyanın hərbi güc reytinqini müəyyən edən nüfuzlu "Global Firepower" təşkilatı 2025-ci il üçün hərbi güc sıralamasını açıqlayıb. Siyahıda 145 ölkənin ordusu 60-dan çox göstərici - hərbi texnika, insan resursları, maliyyə imkanları və coğrafi üstünlüklər əsasında qiymətləndirilib.**

ABŞ, Rusiya və Çin ilk üçlükdədir, Türkiyə isə 9-cu yerdə qərarlaşaraq regionda güclü hərbi mövqeyini qoruyub.

Azərbaycan Ordusu bu ilki reytinqdə 60-cı yerə yüksəlib. Ölkənin hərbi güc göstəricisi olan PowerIndex (PwrIndx) əmsalı 1.2531 olaraq qeyd edilib. Bu göstərici nə qədər aşağıdırsa, ölkənin hərbi gücü bir o qədər yüksək sayılır.

Bu nəticə Azərbaycan Silahlı Qüvvələrinin regiondakı güc balansında önəmli aktora çevrildiyini və son illərdə həyata keçirilən hərbi islahatların öz bəhrəsini verdiyini göstərir.

Reytinqin əsas meyarları bunlardır:

- Aktiv və ehtiyat hərbi personalın sayı;
- Tank, döyüş təyyarəsi və gəmilərin sayı;
- Müdafiə büdcəsi və sənaye imkanları;
- Logistika və coğrafi mövqe.

Qeyd edək ki, reytinqdə nüvə silahları nəzərə alınmır - yalnız konvensional hərbi güc dəyərləndirilir.

İlk 10-luqdakı ordular isə ABŞ, Rusiya, Çin, Hindistan, Cənubi Koreya, Birləşmiş Krallıq, Fransa, Yaponiya, Türkiyə və İtaliya ordularıdır.

**Azərbaycan Hərbi Polisinin sabiq rəisi, hərbi ekspert, polkovnik Rövşən Məhərrəmov "Yeni Müsavat"a bildirdi ki, 145 ölkənin sırasında Azərbaycan Ordusunun 60-cı yerə sahiblənməsi çox yaxşı nəticədir:** "Əsas məsələ budur ki, Azərbaycan Ordusu gün-gündən güclənir. Bunu müxtəlif reytinq hesabatları da təsdiqləyir. 2020-ci ildəki 44 günlük müharibədə Azərbaycan Ordusunun nümayiş etdirdiyi döyüş qabiliyyəti ordumuzu 20-ci əsrin müasir orduları sırasına yüksəltdi. Dünyanın bir sıra hərbi məktəblərində Azərbaycan Ordusunun 44 günlük müharibədəki taktikası, əməliyyatları öyrədilir, nümunə kimi göstərilir. Azərbaycan Ordusunun Türkiyə ordusu modelinə keçidi müharibədən sonra daha da sürətləndirildi. Diqqət edirsinizsə, açıqlanan reytinq siyahısında Türkiyə ordusu dünya üzrə 9-cu yerdədir. Bu, çox böyük nəticədir. Deməli, Azərbaycan Ordusu dünyanın ən güclü 9-cu ordusu modelinə keçir. Azərbaycan Ordusunda komando briqadaları yaradılıb və onların sayı artırılmaqda davam edir. İşğaldan azad edilmiş ərazilərimizdə yeni hərbi hissələr qurulub. Bütün bu və digər addımlar nəticəsində hərbi hissələrimizin sayında və keyfiyyətində yüksəliş olub. Reytinqin yüksəlməsində bu amillər də öz sözünü deyir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev bəyan edib ki, biz öz hərbi qüdrətimizi artırırıq və artıracağıq, müdafiə büdcəsi bu il daha da artırılıb. Bu amil də reytinq siyahısında yerimizə müsbət təsirini göstərir. Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır və beynəlxalq reytinqlər də, həyat da bunu göstərir, bizim hərbi uğurlarımız da buna dəlalət edir".

**Həmsöhbətimiz vurğuladı ki, müasir silahlara malik olmağımız və müdafiə sənayemizin inkişafı da reytinq siyahısında Azərbaycan Ordusunun yerinə öz təsirini göstərən meyarlardandır:** "Bu gün Azərbaycan Ordusu ən müasir silahlarla, texnika ilə təchiz edilib, bu proses davam etdirilir. Biz bundan sonra da ən müasir hərbi texnikaları alacağıq, yeni kontraktlar imzalanır. Əvvəlki illərdə imzalanmış kontraktlar əsasında ən müasir silahlar ölkəmizə gətirilir, onların bir hissəsi hərbi paradlarda göstərilib, bir hissəsi göstərilməyib. Ali Baş Komandan İlham Əliyev dəfələrlə vurğulayıb ki, düşmənin elə bir hərbi və ya strateji obyekti yoxdur ki, Azərbaycan Ordusu onu məhv edə bilməsin.

Prezident İlham Əliyevin ordu quruculuğundakı digər mühüm prinsipial siyasəti ölkənin hərbi sənayesinin yaradılması ilə bağlıdır. Azərbaycanın müdafiə sənayesi inkişaf edir, bir çox silahları, mərmiləri özümüz istehsal edirik. PUA-lar istehsal edirik. Biz başqa ölkələrin ordularına da silah-sursat satırıq. Məhz bu amili vaxtında dəyərləndirən Prezident İlham Əliyev müharibə vəziyyətində yaşayan respublikamızın Silahlı Qüvvələrinin maddi-texniki bazasını milli məhsullar hesabına daha da gücləndirmək məqsədilə 2005-ci ildə Müdafiə Sənayesi Nazirliyini yaratdı. Həmin dövrdən başlayaraq nazirliyin müəssisələrində silah, sursat və hərbi vasitələrin istehsalının genişləndirilməsi və keyfiyyətinin daha da yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Bu illər ərzində nazirliyin müəssisələrində ümumi məhsul istehsalının və müdafiə təyinatlı məmulatların həcmi çox ciddi şəkildə artıb. Ən mühüm amil isə odur ki, Azərbaycan dövləti artıq istehsal etdiyi silahları xaricə ixrac edir. Artıq 10-dan çox ölkə Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin istehsal etdiyi məhsulları öz silahlı qüvvələrində istifadə etmək, hərbi güclərini artırmaq üçün alır".

**R.Məhərrəmov onu da dedi ki, müdafiə sənayemizin davamlı olaraq böyüməsi ilə ölkəmiz xaricdən silah-sursat asılılığından azad olur. Bu, ölkə üçün çox önəmli amildir:** "Azərbaycan MDB məkanında dörd ölkədən biridir ki, onun müasir tələblərə cavab verən müdafiə sənayesi mövcuddur. Eyni zamanda qürurverici haldır ki, bu gün ölkəmiz ən müasir silahların ixracatçısıdır. Prezident İlham Əliyev iclasların birində bu barədə deyib ki, bu gün biz hərbi texnikanın istehsalı işində uğurla inkişaf edirik. Azərbaycanda mindən çox adda hərbi təyinatlı məhsul istehsal olunur. Hərbi texnikanın, sursatların istehsalı ilə bağlı bizim yeni planlarımız var və biz onları da həyata keçirəcəyik. Bir sözlə, bu gün ölkəmizin hərbi potensialı ən yüksək səviyyədədir. Ordumuzun döyüş qabiliyyəti də yüksək səviyyədədir. Bizim ordumuz bunu döyüş meydanında da göstərib və nümayiş etdirib".

**Ekspert qeyd etdi ki, Prezident İlham Əliyevin diqqəti, qayğısı və rəhbərliyi ilə son illər həyata keçirilən kompleks islahatlar nəticəsində Azərbaycan Ordusu Cənubi Qafqazın ən güclü ordusuna çevrilib. Şübhəsiz, yaxın gələcəkdə Azərbaycan Ordusu reytinq siyahısında daha da irəliləyəcək:** "Əslində mən hesab edirəm ki, reytinq cədvəlində yerimiz daha da irəlidədir. Ordumuzda bəzi çatışmazlıqlar aradan qaldırıldıqdan sonra reytinq siyahısında yerimiz ciddi şəkildə irəlidə olacaq".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 80 (8690) 9 may 2025

**Baş nazir Əli Əsədov mayın 8-də imzaladığı qərarla "Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında" Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 120 nömrəli Qərarında dəyişiklik edilib.**

# İllik təhsil xərci 9 min manat oldu - baş nazirin qərarının şifrələri

## Ekspert deyir ki, universitetlərin maliyyə yükü artacaq və bu xərci çox az ailə qarşılaya biləcək



Qərara əsasən, hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı müəyyən edilib.

Ali təhsil müəssisəsi tərəfindən dövlət sifarişi ilə hər bir təhsilalana çəkilən faktiki illik xərc təsdiq edilmiş illik təhsil xərclərinin məbləğindən artıq olduğu halda, onun qalan hissəsi həmin ali təhsil müəssisəsi və ya onun tabe olduğu qurum tərəfindən ödənilir. Bakalavr təhsil səviyyəsi üzrə ixtisasların illik təhsil xərclərində ən yüksək məbləğ 9 min manat müəyyənləşib.

"Dirijorluq", "Bəstəkarlıq", "Vokal sənəti", "İnstrumental ifaçılıq" ixtisasının illik xərci 9 min manat, "Tibb", "Müalicə işi", "Hərbi tibb", "Hərbi həkim işi"nin illik xərci 8 min manat , "Qrafika", "Stomatologiya", "Dekorativ-tətbiqi sənət" (sahələr üzrə), "Heykəltəraşlıq", "Rəngkarlıq" ixtisasının illik xərci 7 min manat , "Tibb bacısı işi", "Tibb bacısı (qardaşı) işi", "Fizioterapiya və tibbi reabilitasiya", "Əczaçılıq" ixtisasının illik xərci 6 min manat təşkil edir.

**Təhsil eksperti Kamran Əsədov mövzu ilə bağlı "Yeni Müsavat"a fikirlərini bölüşüb:** "Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiqi ilə bağlı Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 120 nömrəli qərarına edilən dəyişiklik struktur olaraq ali təhsilin maliyyə idarəetməsinə yeni çalarlar gətirsə də, onun əsaslandırılması, tətbiqi mexanizmi və sosial təsirləri baxımından həm məntiqi, həm də strateji baxımdan ciddi çatışmazlıqlar ehtiva edir. Qərara əsasən, bakalavr səviyyəsində ixtisasların illik təhsil xərcləri diferensial şəkildə müəyyən olunub və bu məbləğlər bəzi hallarda 9 min manata qədər yüksəlib. Eyni zamanda müəyyən edilib ki, dövlət sifarişi əsasında təhsil alan tələbəyə çəkilən real xərclər müəyyən olunmuş məbləğdən çox olarsa, yaranan fərqi universitet və ya onun tabe olduğu qurum ödəyəcək. Bu mexanizm struktur səviyyəsində maliyyə intizamı yaratmaq iddiası daşısa da, tətbiq şəraitində ali təhsilin keyfiyyətinə, əlçatanlığına və ədalətinə mənfi təsir göstərmək riski yüksəkdir".

**Ekspert əlavə edib ki, qanunvericilik baxımından bu qərar bir tərəfdən "Təhsil haqqında" Qanunun 13-cü maddəsində nəzərdə tutulmuş təhsil müəssisələrinin maliyyə muxtariyyəti prinsipinə uyğun olaraq ali məktəblərin özlərini maliyyələşdirmə imkanını artırmaq niyyəti daşıyır:** "Digər tərəfdən, konstitusiyanın 42-ci maddəsi ilə təmin edilən ali təhsilin əlçatanlığı hüququnu iqtisadi baxımdan şərtləndirir. Qərarda müəyyən edilmiş 9 min manatlıq illik təhsil xərci Azərbaycan reallığında çox az ailənin qarşılaya biləcəyi göstəricidir. Dövlət Statistika Komitəsinin 2024-cü il məlumatına əsasən, ölkədə orta aylıq əməkhaqqı 970 manat təşkil edir, yəni illik təhsil haqqı bir ailənin illik gəlirinin 75-80 faizi qədərdir. Bu vəziyyət ali təhsilin sosial təbəqələşməsinə səbəb olur və təhsilin bərabər imkanlar əsasında həyata keçirilməsi prinsipini pozur".

**Bununla belə, Kamran Əsədov yeni mexanizmin müsbət tərəfinin olduğunu da bildirib:** "Müsbət tərəfi o ola bilər ki, təhsil xərclərinin faktiki hesablanması və sənədləşdirilməsi universitetlərin maliyyə intizamını gücləndirə bilər. Həmçinin bu sistem universitetləri daha səmərəli idarəetməyə, resursların düzgün bölgüsünə və xərclərin əsaslandırılmasına təşviq edə bilər. Lakin bu yalnız o halda real nəticə verəcək ki, xərclərin şəffaflığı, audit mexanizmləri və nəticə əsaslı büdcələşmə sistemi paralel şəkildə tətbiq olunsun. Hazırkı şəraitdə bu şəffaflıq və hesabatlılıq mexanizmlərinin zəif olması, ali məktəblərin əksəriyyətində daxili maliyyə idarəetmə sistemlərinin formal xarakter daşıması nəticəsində bu qərar korrupsiya risklərini artırmaq və süni şişirdilmiş faktiki xərclərin sənədlərdə təsdiqlənməsi ilə nəticələnə bilər.

Maliyyələşmə mexanizmi baxımından dünya təcrübəsində tələbəyə görə maliyyələşmə (student-based funding) modeli Skandinaviya ölkələrində, xüsusilə də İsveç, Finlandiya və Danimarkada uğurla tətbiq olunur. Bu sistemdə tələbənin sosial durumu, təhsil aldığı proqramın əmək bazarındakı dəyəri və universitetin keyfiyyət göstəriciləri nəzərə alınmaqla dövlət maliyyələşməsi həyata keçirilir. Məsələn, Finlandiyada ali təhsil pulsuzdur, lakin universitetlər dövlətə təqdim etdikləri təhsil xidmətinin nəticələri - məzunların işlə təminatı, elmi məhsuldarlıq və beynəlxalqlaşma göstəricilərinə görə maliyyələşirlər. Azərbaycanda isə yeni mexanizm nəticəyönlü deyil, xərcyönümlüdür - yəni ali məktəb daha çox pul alması üçün daha çox xərc göstərməlidir. Bu isə nəticənin deyil, kağız üzərində xərcin stimullaşdırılmasına gətirib çıxarır".

**Ekspert "bu qərar tətbiq olunduqdan sonra nə dəyişəcək" sualına belə cavab verib:** "Cavab budur ki, qısa müddətdə dövlət sifarişi ilə oxuyan tələbələrin sayı artmadan, universitetlərin maliyyə yükü artacaq, çünki əlavə vəsaiti ya universitet özü ödəməli olacaq, ya da tabe olduğu qurumun büdcəsinə müraciət edəcək. Universitetlər bu yükdən yayınmaq üçün ya qəbulu ixtisar edəcək, ya da əlavə mənbələr axtaracaq - bu da ödənişli əsaslarla təhsil alanlara təzyiq və təhsil haqlarının süni şəkildə artırılması ilə nəticələnə bilər. Belə olan halda təhsilhaqqı 6-9 min manat arasında dəyişən sahələrdə yalnız varlı ailələrin uşaqları oxuya biləcək. Ədalətli təhsil sistemi isə sosial imkanlardan asılı olmamalıdır. "Nə dəyişməlidir" sualına gəldikdə isə maliyyələşmə mexanizmi struktur olaraq nəticə əsaslı büdcələşməyə keçirilməli, dövlət sifarişi müəyyən edilərkən əmək bazarının tələbatı, regionların ehtiyacları və ixtisasların strateji əhəmiyyəti nəzərə alınmalıdır. Təhsilhaqqı dövlət tərəfindən kompensasiya ediləcəksə, bu kompensasiya yalnız universitetin keyfiyyət göstəricilərinə görə olmalıdır. Bundan əlavə, aztəminatlı ailələrin övladlarının yüksəkkeyfiyyətli ixtisaslara çıxışını təmin etmək üçün sosial təqaüdlər və ehtiyaca əsaslanan subsidiya mexanizmi genişləndirilməlidir. Əgər bu addımlar atılmazsa, qərar yalnız ali təhsilin kommersiyalaşmasına, sosial təbəqələşməyə və ali məktəblərdə formalaşan ikinci "elita təhsili" təbəqəsinə xidmət edəcək.

Nəticə etibarilə bu qərar ali təhsil sistemində keyfiyyətə deyil, görünən büdcə rəqəmlərinə fokuslanan, lakin sosial və strateji nəticələri hesaba almayan, metodoloji baxımdan yetkinləşməmiş qərardır. Azərbaycanın ali təhsilində maliyyələşmə strukturunun islahatı vacibdir, lakin bu, səbəblərin deyil, nəticələrin idarə olunmasına yönəlməlidir. Təhsilin məqsədi gəliri çox olan universitetlər yaratmaq deyil, bilikli, bacarıqlı və sosial məsuliyyətli vətəndaşlar yetişdirməkdir. Bu qərar isə məhz həmin hədəfdən uzaq düşmüş bir idarəetmə praktikasının növbəti təzahürüdür".

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

# Müəllimlərin attestasiyasının növbəti mərhələsi

**Mədəniyyət Nazirliyi sistemindəki musiqi və incəsənət məktəblərində müəllimlərin attestasiyasının növbəti mərhələsinə başlanılır.**

Bu barədə nazirlikdən məlumat verilib.

Bildirilib ki, Mədəniyyət Nazirliyi sistemindəki musiqi və incəsənət məktəblərində çalışan təhsilverənlərin peşəkar bilik, bacarıq və səriştələrinin qiymətləndirilməsi məqsədilə əmək qanunvericiliyinin tələbləri əsas götürülməklə müəllimlərin attestasiyası keçirilir.

Attestasiyanın ilk mərhələsi Bakı və Abşeron-Xızı regionları üzrə 47 musiqi və incəsənət məktəbində 1759 nəfər fortepiano və musiqi nəzəriyyəsi müəllimini əhatə edib.

12 may tarixində başlayacaq növbəti mərhələdə Quba-Xaçmaz, Mil-Muğan və Şirvan-Salyan regionları üzrə 20 musiqi və incəsənət məktəbinin fortepiano və musiqi nəzəriyyəsi ixtisasları üzrə müəllimlərinin, habelə əvvəlki mərhələdə üzrlü səbəbdən iştirak edə bilməyən təhsilverənlərin, ümumilikdə 620 işçinin attestasiyası keçiriləcək.




# Elmi dərəcələrin verilmə mexanizmi dəyişəcək?

**"Elmi dərəcələrin verilməsi mexanizmləri, onların məqsədi və effektivliyi barədə yanaşmalar dəyişməlidir". Elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli bu barədə İctimai Televiziyanın "Sabaha saxlamayaq" proqramında fikirlərini bölüşüb. Müşavir hazırkı elmi dərəcə sisteminin səmərəliliyini statistik göstəricilərlə şərh edərək bildirib: "Azərbaycanda doktoranturaya qəbul olunanların cəmi 10 faizi dissertasiyasını müdafiə edə bilir".**

**Nicat Məmmədli** qeyd edib ki, bir çox ölkələrdə yalnız bir dəfə - PhD səviyyəsində dissertasiya müdafiə olunur, daha sonra alimlər elmi-tədqiqat fəaliyyəti ilə professorluq səviyyəsinə yüksəlirlər: "Xaricdə elə bir prosedur yoxdur ki, mütləq 250 səhifəlik dissertasiya yazıb onu komissiya qarşısında müdafiə edəsən və yalnız bu əsasla professor adını alasan. Artıq bəzi ölkələrdə PhD dərəcəsi professorluq üçün kifayət edir".

Onun fikrincə, əsas məqsəd tədqiqat aparmaq olmalıdır, elmi dərəcəyə formal şəkildə sahib olmaq yox: "Doktorluq dərəcəsini məqsəd yox, vasitə kimi görməliyik. İnsanlara deməliyik: "Əgər tədqiqatla məşğul olmaq istəyirsinizsə, buyurun, öyrənin, araşdırın"".

**Müşavir hesab edir ki, Azərbaycanda professor adının verilməsi mərkəzləşdirilmiş şəkildə tənzimlənməməlidir. Bu məsuliyyəti ali təhsil müəssisələri özü daşımalıdır:** "Dünyanın heç bir inkişaf etmiş ölkəsində professor adını mərkəzi qurum vermir. Bu, universitetin daxili məsələsidir. Bir universitetdə professor olan şəxs, başqa universitetdə dosent və ya assistent kimi fəaliyyət göstərə bilər. Universitet özü müəyyən etməlidir ki, onun professoru kimdir".

Yeni Müsavat
N 80 (8690) 9 may 2025

# OPEK+ ölkələrinin riskli qərarı - neft 50 dollara düşsə...

## İqtisadçılar hesab edir ki, əgər neft qiymətləri 50 dollar civarında bir neçə il qalsa, bəzi ölkələrdə ciddi iqtisadi dalğalanmalar baş verəcək

**Dünya bazarında neft qiymətləri və hasilatı ilə bağlı maraqlı proseslər cərəyan etməkdədir. Qiymətlərin azaldığı bir vaxtda səkkiz OPEC+ ölkəsi bu ilin iyun ayında hasilatı kəskin şəkildə - gündəlik 411 min barel artıracaq. Razılaşmada iştirak edən ölkələr cari planlarına mümkün düzəlişlər üçün hər ay görüşməyə söz verirlər.**

Ekspertlər hesab edirlər ki, hasilatın artırılması qərarının əsas məqsədi OPEC+ razılaşmasını pozanları müəyyən edilmiş kvotalara əməl etməyə məcbur etməkdir. Kartel liderləri bu tədbirlər effekt vermədiyi təqdirdə daha da irəli gedəcəklərini vəd edirlər.

Qərb agentliklərinin verdiyi məlumata görə, saziş iştirakçıları hasilat kvotalarına əməl etməməyə davam edərsə, OPEC+ neft hasilatının artımını daha da sürətləndirə və oktyabrın sonuna qədər könüllü azaldılan 2,2 milyon barel hasilatı tam bərpa edə bilər. OPEC+ qərarı artıq qara qızılın qiymətlərində azalma gözləntilərini artırıb. Mart ayında Səudiyyə Ərəbistanının başçılıq etdiyi ixracatçı ölkələr, hasilat artımının 2026-cı ilin sentyabr ayına qədər davam edəcəyinə qərar veriblər. OPEK+ iştirakçıları bildirirlər ki, iyun ayında hasilatı sürətləndirmək qərarı mövcud sağlam bazar əsaslarını nəzərə alaraq qəbul edilib. Səkkiz OPEC+ ölkəsi (Səudiyyə Ərəbistanı, Rusiya, İraq, BƏƏ, Əlcəzair, Küveyt, Qazaxıstan və Oman) bu addımın iştirakçı ölkələrə kompensasiyalarını sürətləndirmək imkanı verəcəyini qeyd edirlər.

Gözlənilir ki, artıq iyun ayında onlar aprel ayından könüllü hasilatın ümumi həcminin 30 faizdən çoxunu neft bazarına qaytara bilərlər. Hesablamalara görə, OPEC+ ölkələrinin iyun ayı üçün ümumi kvotası sazişi pozanlardan kompensasiyalar nəzərə alınmaqla sutkada 36,14 milyon barel təşkil edəcək ki, bu da may ayı ilə müqayisədə 359 min barel çoxdur. Qərb analitikləri hesab edir ki, OPEC+ qərarı növbəti üç rüb ərzində qlobal neft ehtiyatlarını 200 milyon barel artıra bilər ki, bu da qiymətlərin bir barel üçün 50 dollara düşməsi riskini yaradır. Bu ilin əvvəlindən neft artıq təxminən 19 faiz ucuzlaşıb. Və kartelin aprel qərarından sonra "Brent" markalı neftin qiyməti bir həftə ərzində təxminən 72 dollardan 60 dollara düşüb.

İqtisadçılar hesab edir ki, əgər neft qiymətləri 50 dollar civarında bir neçə il qalsa, neftdən kəskin asılı olan ölkələrdə ciddi iqtisadi dalğalanmalar baş verəcək və Azərbaycan da bu sırada ola bilər. Vəziyyətin qəlizliyi həm də ondadır ki, qiymətlə paralel neft hasilatı da azalır.

**İqtisadçı-ekspert Elman Sadıqova görə, 2025-ci ilin əvvəlindən və hazırda neft bazarında gedən proseslər gözlənilməz deyil:** "Bu vəziyyətin yaranacağı hələ ötən ilin payızında - Donald Trampın seçki kampaniyası zamanı proqnoz edilirdi. Hamı gözləyirdi ki, Tramp hakimiyyətə gələrsə, kəskin tarif siyasəti yürüdəcək. Bunu da ona görə edirdi ki, birinci hakimiyyəti dövründə daha rasional və düşünülmüş tarif siyasəti ilə kifayət qədər ciddi nəticələr əldə etmişdi. Bu siyasətdən həddən artıq ruhlanan, bir az da eyforiyaya düşən Trampın onu daha da kəskinləşdirəcəyi gözlənilirdi. Lakin heç kim belə geniş, hamıya yönəlik və belə dəyək, tam araşdırılmamış siyasət gözləmirdi. İndi bu siyasət başladılıb, onu digər məhsulların qiymətlərində yaratdığı bahalaşma neft-enerji qiymətlərini aşağı çəkir. Neftin ucuzlaşması isə ABŞ-da mühüm əhəmiyyətə malik benzin-dizel qiymətlərini salır. Bu da ölkədə inflyasiyanın sürətlənməsini xeyli dərəcədə tormozlayır: yükdaşıma xidmətinin, kənd təsərrüfatı məhsullarının qiymətləri düşür. Bu, neftin qiymətini ucuzlaşdırmağı prioritetə çevirir və Tramp da bunu nəzərə alır. Neft qiymətlərini aşağı salmaq imkanları çoxdur - bazarda təklifi artırmaq bunun ən asan yoludur. Tramp bunu Venesueal, İran neftini bazara qaytarmaqla da edə bilərdi, lakin əsas ixracatçılar olan ərəb ölkələrinə təsiri seçib. Əvvəlcə hədəf 45-50 dollar idi, lakin tezliklə aydın oldu ki, bu qiymət ABŞ-ın özünün neft hasilatında artımın qarşısını alacaq, sektora mənfi təsir göstərəcək. Buna görə 50-55 dollar aralığında dayanıldı. Burada əsas məsələ Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri və digər neft ixracatçılarını razı salmaq idi. Tramp onları buna razı salıb: bu, aydın görünür. Ərəb dövlətlərinin hazırda ABŞ-ın bu iradəsinə qarşı getmək imkanı-potensialı yoxdur. Çünki Tramp rahatlıqla onlardan üz çevirib, Venesuela, İran neftini bazara qaytara bilər. Bu halda hasilatı artırmaq istəməyən ölkələr bazar paylarını itirməklə yanaşı, ABŞ kimi superdövlətin düşmənçiliyini qazanmış olacaqlar. Bunu isə, əlbəttə, heç bir ərəb dövləti istəmir. Onlar qısa müddət ərzində neftin aşağı qiymətlərinə dözməyə razılaşmaq məcburiyyətində qaldılar. Müvəqqəti deyirəm, ona görə ki, Tramp əsas ticarət tərəfdaşları ilə tarif razılaşmalarına nail olandan sonra neft qiymətlərinin bir qədər yuxarı qalxmasına imkan verə biləcək, lakin 55 dollardan yuxarı olacağı gözlənilən deyil".



**Ekspert qeyd edir ki, hazırkı neft qiymətləri ABŞ-ın tarif siyasəti fonunda neft idxal edən tərəfdaşları üçün ciddi stimuldur:** "Görürsünüz, ABŞ-ın əsas müttəfiqləri olan Avropa İttifaqı, Böyük Britaniya, Yaponiya və digərləri ABŞ-a qarşı kəskin tarif siyasəti qərarları almadılar. Enerji qiymətlərindəki ucuzlaşma onlara böyük dividentlər gətirir: xərclər azalır, inflyasiya düşür. Onlar artıq ABŞ-la tarif danışıqlarına başlayıblar və yəqin ki, yaxın 1-2 ay ərzində bütün əsas ticarət tərəfdaşları ilə hamını qane edən razılaşmalar əldə olunacaq. Neft ixracatçıları, xüsusilə də Səudiyyə Ərəbistanı bunu görür. Düşünürəm ki, neft qiymətlərinin 50 dollara qədər düşməsi gözlənilir. Və Azərbaycan 50 dollar ətrafındakı neft qiymətlərinə hazırdır. Bu, ciddi devalvasiya təzyiqi də yaratmayacaq, əgər müəyyən addımlar atılacaqsa. Bu addımların atılacağını gözləyirəm, çünki hazırkı məqamda ölkə iqtisadiyyatında ciddi təlatümlərə yol açacaq proseslərə yol verilməsi ağır nəticələrə səbəb ola bilər. Fikrimcə, ölkənin mövcud borc səviyyəsi, valyuta ehtiyatlarının həcmi, iqtisadiyyatın vəziyyəti imkan verəcək ki, belə təlatümlərdən yayınmaq mümkün olsun. Hökumətin artıq zəruri fəaliyyət planına sahib olduğunu düşünürəm, çünki neft bazarındakı hazırkı proseslər artıq ötən ilin payızından proqnozlaşdırılırdı".

Qeyd edək ki, mayın 8-də dünya bazarlarında "Azeri Light" (CIF) markalı Azərbaycan neftinin qiyməti 1,69 ABŞ dolları və ya 2,6 faiz azalaraq 63,25 ABŞ dollarına düşüb. Azərbaycan üçün neft qiymətlərinin düşməsi ilə yanaşı, onun hasilatının azalması da problem yaradan amildir. Rəsmi statistikaya əsasən birinci rübdə Azərbaycanda 6,9 milyon ton neft (kondensatla birlikdə) hasil edilib. Hasilatın 4 milyon tonu "Azəri-Çıraq-Günəşli"nin, 1 milyon tonu (kondensat) "Şahdəniz"in, 0,14 milyon tonu (kondensat) "Abşeron" yatağının payına düşüb. SOCAR üzrə neft (kondensatla birlikdə) hasilatı 1,8 milyon ton təşkil edib.

Rüb ərzində 5,7 milyon ton neft (kondensatla birlikdə) ixraca nəql olunub. Bunun 4,9 milyon tonu konsorsiumların, 0,7 milyon tonu SOCAR-ın, 0,14 milyon tonu isə "Abşeron" yatağının payına düşüb. Beləliklə, birinci rübdə Azərbaycanda neft hasilatı illik ifadədə 400 min ton azalıb. Bunun 200 min tonu "Azəri-Çıraq-Günəşli"də, 100 min tonu (kondensat) "Şahdəniz"də, 100 min tonu isə SOCAR üzrə qeydə alınıb. İxracda 300 min ton AÇG, 100 min ton SOCAR üzrə azalma var.

Neft ixracının həcm və dəyər baxımından azalması ölkənin valyuta gəlirlərində açıq hiss olunur. Belə ki, birinci rübdə Dövlət Neft Fondu "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunun işlənməsindən 1 milyard 177,406 milyon ABŞ dolları məbləğində gəlir əldə edib. Bu, 2024-cü ilin yanvar-mart ayları ilə müqayisədə 270,4 milyon ABŞ dolları və yaxud 18,7 faiz azdır.

Bundan əlavə, dövlət büdcəsinə neft-qaz sektorundan daxil olan vergilərdə də kəskin azalma var. Açıqlanan hesabata əsasən birinci rübdə bu gəlir mənbəsindən büdcəyə 1 milyard 367,2 milyon manat daxil olub. Bu, illik ifadədə 40 faiz azalma deməkdir. Qeyd edək ki, ötən ilin eyni dövründə Vergi Xidmətinin xətti ilə büdcəyə neft-qaz sektorundan 2 milyard 284 milyon manat daxil olmuşdu.

Azərbaycan hökuməti neft hasilatı və neft ixracından gəlirlərin azalmasını gözləyir. Bildirilir ki, bu azalma 2029-cu ilədək davam edəcək. İqtisadiyyat Nazirliyinin təqdim etdiyi məlumatlara əsasən 2025-ci ildə neft hasilatının azalacağına baxmayaraq qaz hasilatının artması sektorun inkişafına artırıcı təsir edəcək. 2027-2029-cu illərdə neft və əmtəəlik qaz hasilatı (2029-cu il istisna olmaqla) üzrə azalmanın davam etməsi nəzərə alınaraq neft-qaz sektorunda azalma proqnozlaşdırılıb.

Lakin hökumətin açıqladığı ortamüddətli dövr üçün büdcə çərçivəsində hesablama və proqnozlaşdırma neftin 65 dollarlıq orta qiyməti əsasında aparılıb. Gözləntilər isə neft qiymətlərinin 55-60 dollarlıq həddə uzunmüddətli dövrdə qalması yönündədir. Buna görə də iyunun əvvəlinə qədər hökumətin dövlət büdcəsinə dəyişiklik təşəbbüsü ilə çıxış edəcəyi gözlənilir.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 80 (8690) 9 may 2025

# Azərbaycanlılar “arama motoru”nda bunları axtarır - siyahı

## Google-da ən çox axtarılan suallar əslində cəmiyyətin gündəmini, problemlərini və ümidlərini ortaya qoyur...

**İnternet artıq həyatımızın ayrılmaz bir hissəsinə çevrilib. Xüsusilə “Google” axtarış sistemi Azərbaycan cəmiyyətinin gündəlik suallarını, maraq dairələrini, qorxularını və hətta arzularını ortaya çıxaran güclü bir vasitədir.**

Bəs azərbaycanlılar ən çox nəyi axtarır? Hər gün milyonlarla istifadəçinin daxil olduğu Google-da hansı suallar, hansı mövzular populyarlıq qazanır?

Azərbaycanlılar üçün hava şəraiti gündəlik planların qurulmasında önəmli yer tutur. Xüsusilə Bakıda güclü küləklər, bölgələrdə isə dəyişkən iqlim şəraiti hava proqnozlarına olan marağı artırır. “Sabah yağış yağacaq?”, “Bakıda bu gün külək olacaqmı?” kimi suallar Google-da hər gün yüzlərlə dəfə axtarılır.

İqtisadi qeyri-sabitlik və alıcılıq qabiliyyətinə olan təsirlər səbəbilə azərbaycanlıların ən çox axtardığı mövzulardan biri də dollar və digər valyutaların məzənnəsidir. “Dollar bu gün neçəyədir?”, “Manatın məzənnəsi Mərkəzi Bankda” kimi suallar Google axtarışında ön sıralardadır.



Özəlliklə pandemiyadan sonra sağlamlıq mövzuları az qala hər evdə əsas müzakirə mövzusuna çevrildi. “Koronavirus əlamətləri”, “qrip və soyuqdəymə fərqi”, “mədə ağrısının səbəbləri” kimi suallar Google-da sıx-sıx axtarılır. Özünü həkimə getmədən müayinə etmək istəyənlərin sayı xeyli çoxdur. İnsanlar həkimə getmədən problemin səbəbini internetdə axtarır.

Son illər işsizlik, iqtisadi çətinliklər və sosial media platformalarının yüksəlişi ilə birlikdə insanlar internetdən gəlir əldə etməyin yollarını axtarır. “Evdə oturaraq necə pul qazanmaq olar?”, ""YouTube-dan necə pul çıxartmaq olar?", “TikTok-la qazanc” kimi açar sözlər trenddədir. Azərbaycanlı istifadəçilərin çox kiçik hissəsi bu yolla pul qazana bilir. Məsələn, YouTube-un reklamdan gəlir alqoritmi ölkələrə görə dəyişir. İstifadəçi sayı, reklam büdcələri, region, ölkə reytinqi və s.

Xaricə köçmək istəyənlərin sayı az deyil. “Almaniyaya necə köçmək olar?”, “Kanada miqrasiya şərtləri”, “Türkiyədə yaşamaq üçün nə etmək lazımdır?” kimi suallar təkcə gənclər deyil, müxtəlif yaş qruplarından olan insanlar tərəfindən axtarılır. Bu da yaşam standartları, sosial vəziyyətin hansı səviyyədə olmasından asılıdır.

Azərbaycanda dini və rəsmi bayramlarla bağlı axtarışlar da önəmli yer tutur. “Ramazan bayramı nə vaxtdır?”, “Novruzda neçə gün tətil olacaq?”, “Qurban kəsilmə qaydaları” kimi suallar bayram ərəfəsində kəskin şəkildə artır.

Azərbaycanlılar siyasətlə yaxından maraqlanırlar. Məşhur şəxslərin həbsi, məmur qalmaqalları və siyasi proseslərə dair xəbərlər axtarışları artırır. “Nazir niyə həbs olundu?”, “Bu adamın günahı nə idi?”, “Cinayət işi necə başladı?” sualları Google-da trend olur.

Toy mövsümündə insanlar “ən yaxşı toy mahnıları”, “rəqs musiqiləri”, “yeni mahnılar 2025" kimi axtarışlar edirlər. Eyni zamanda məşhur ifaçıların adları, sözləri və musiqi yükləmə ilə bağlı suallar da artmaqdadır. Bu mövzuda axtarış hər zaman ilk 10-a daxil olub və olur.

Yeni çıxan məşhurlar, TikTok fenomenləri, siyasətçilər və jurnalistlər - insanlar daim “o kimdir?”, “neçə yaşı var?”, “haradandır?” kimi suallarla tanınmış şəxslərin kimliyini axtarırlar. Bu sualların ardında həm maraq, həm də bəzən tənqid dayanır.

Azərbaycanlıların Google-da ən çox axtardığı suallar əslində cəmiyyətin gündəmini, problemlərini və ümidlərini bir növ ortaya qoyur. Bu sorğular, sadəcə, texniki maraq deyil, həm də psixoloji və sosial əks-səda daşıyır.

Google axtarışları sayəsində xalqın nə düşündüyünü, nə istədiyini və nə üçün narahat olduğunu anlamaq mümkündür.

**Mövzu ilə bağlı “Yeni Müsavat”a danışan sosioloq Üzeyir Şəfiyevin fikrincə, bütün bu axtarışlar təkcə azərbaycanlının deyil, ümumilikdə bəşəriyyətin şüuraltı qorxularını, ümidlərini və suallarını əks etdirir:** “İnsanlar Google-da nə axtarırsa, əslində onu düşünür, onu yaşamaq istəyir və ya ondan qorxur. Bu, təkcə lokal bir maraq deyil, qlobal bir tendensiyadır. Başqa sözlə, bu axtarış menyularında dünyanın ümumi narahat ruh halı gizlənir. Çünki dünyamız bu gün çox narahatdır.

Pandemiya, ardınca gələn fors-major hadisələr, ardıcıl iqtisadi böhranlar və iqlim dəyişiklikləri, sanki bütövlükdə planetin nəfəsini sıxır. Üstəlik, “idarə olunan xaos” dediyimiz anlayış da artıq bir çox beynəlxalq analitiklərin dilindədir. Qlobal güclərin geosiyasi oyunları, bəzən müharibələr, bəzən humanitar böhranlar, bəzən isə rəqəmsal müstəvidə baş verən informasiya manipulyasiyaları dünyanın hər yerində insanları psixoloji cəhətdən gərgin vəziyyətdə saxlayır.

Bu gün dünyada bir münaqişə bitməmiş digəri başlayır. Resurslar uğrunda döyüşlər, nəqliyyat və enerji dəhlizlərinə nəzarət, su ehtiyatları ilə bağlı çəkişmələr - bunların hamısı insanlığın ortaq gələcəyini sual altına salır.

Azərbaycan cəmiyyətində bu tipli axtarışların artması da təsadüfi deyil. Biz də bu narahat dünyanın narahat sakinlərindən biriyik. Dünyanın indi ən çox ehtiyac duyduğu şey hümanizm, paylaşım və rahatlıqdır. Təəssüf ki, əhali sayının artması ilə resursların azalması arasında yaranan uçurum bu ehtiyacı daha da dərinləşdirir. Beləliklə, bu gün dünyanın istənilən bölgəsində baş verən bir hadisə istər siyasi qərar, istər təbii fəlakət, istərsə də sosial partlayış, kəpənək effekti ilə planetin digər ucuna da təsir edir. Artıq lokal hadisə anlayışı köhnəlib. Dünya elə bir dövrə qədəm qoyub ki, ən kiçik dalğa belə qlobal rezonans doğura bilir".

**Ekspert dedi ki, yəni bu gün azərbaycanlının yaşadığı narahatlıq, duyduğu qeyri-müəyyənlik, sabahla bağlı sualları təkcə milli reallıqla bağlı deyil:** “Biz artıq dünya ilə birgə düşünür, birgə təlaş keçiririk. Azərbaycanın coğrafi sərhədləri informasiya axını qarşısında mənasızlaşıb. İndi hər bir Azərbaycan vətəndaşı həm də rəqəmsal dünyanın və qlobal informasiya cəmiyyətinin bir üzvüdür. Sürətlə irəliləyən rəqəmsal əsrdə bir xəbərin, bir tvitin, bir hadisənin saniyələr içində qitələri aşdığı bir zamanda yaşayırıq. Bu dövrdə "mənə aid deyil" deyə biləcəyimiz heç nə yoxdur. Ukraynadakı müharibə, Qəzza zolağındakı insanlıq dramı, Fransadakı iqlim etirazları, ABŞ-dakı iqtisadi qərarlar - hamısı bir şəkildə bizim də gündəlik həyatımıza sirayət edir.

Məhz bu səbəbdən Azərbaycan insanı da dünya insanı kimi narahatdır. Onun axtarışları, sualları, qorxuları və ümidləri artıq lokal çərçivəni aşır".

**Xalidə GƏRAY, “Yeni Müsavat”**




## TikTok təhlükəlidir, ləğv edilməlidir - çağırış

**Son zamanlar TikTok istifadəçilərinin yaydığı məzmun, təhlükəsizlik məsələləri, platformanın uşaqlar və gənclər üzərindəki təsiri geniş müzakirə mövzusuna çevrilib. Məhz bu kontekstdə tanınmış jurnalist İslam Qədirli şəxsi sosial şəbəkə hesabında narahatlıq doğuran paylaşım edib. O bildirib ki, TikTok təcili ləğv edilməlidir.**

Məsələ ilə bağlı Bizim.Media-ya danışan jurnalist qeyd edib ki, problem əsasən insanlarda deyil, platformanın alqoritmindədir: “TikTok-un alqoritmi daha çox narahatedici məzmunları, xüsusilə də azyaşlıların qarşısına çıxarmağa meyllidir. Məni narahat edən əsas məsələ məhz budur”.

İslam Qədirli bu fikrini konkret faktla əsaslandırıb. O bildirib ki, yeni zelandiyalı sənədli film istehsalçısı araşdırma apararaq özünə 13 yaşlı bir qız adına TikTok hesabı yaradır. Maraqlısı budur ki, bu saxta profil heç bir məzmunu bəyənmir, yalnız təhsil, heyvanlar və digər zərərsiz sahələri maraq dairəsi kimi qeyd edir.

Nəticədə cəmi 22 dəqiqə 15 saniyədən sonra qarşısına intihar, zorakılıq və dava-dalaşla bağlı videolar çıxarılır. Yəni TikTok platforması bu istifadəçini 13 yaşlı bir qız kimi tanıyır və ona uyğun məzmun təqdim edir.

Digər tərəfdən, TikTok-un azyaşlıların məlumatlarını icazəsiz şəkildə topladığına dair məhkəmə işlərində dəfələrlə uduzduğu və cərimələndiyi vurğulanır.

Jurnalistin diqqət çəkdiyi başqa bir vacib məqam da platformada pul göndərmə (hədiyyə) sistemidir: “Xatırladım ki, bir azyaşlı uşaq bu yaxınlarda ev almaq üçün toplanmış 70 min manatdan çox pulu TikTok-da fəaliyyət göstərən şəxslərə göndərib. Bu kimi hallar çox baş verir. Hətta əxlaqsızlıq açıq şəkildə təbliğ olunur. Bu reallıq uşaqları və cəmiyyəti intihara, pedofiliya kimi təhlükələrə sürükləyir”.



# Bill Qeytslə “yeni müsavat”çını birləşdirən... solaxaylıq

**Uğurlu baş direktorların ən çox vurğulanan xüsusiyyətləri güclü liderlik, strateji düşüncə və təsirli ünsiyyət bacarıqlarıdır. Lakin alimlərin son araşdırmaları göstərir ki, bu stereotiplərdən fərqli olaraq, gözlənilməz bir amil də böyük uğurların arxasında dayana bilər: solaxaylıq.**

Stiv Cobs, Bill Qeyts və Mark Zukerberq kimi texnologiya nəhəngləri illərdir biznes dünyasında öz uğurları ilə diqqət çəkirlər. Donald G. Kostello Biznes Məktəbinin mütəxəssislərinin apardığı araşdırmaya görə, bu uğurların arxasında çox vaxt nəzərə alınmayan bir fiziki xüsusiyyət - sol əl üstünlüyü dayanır. Araşdırmada 472 şirkətdən minlərlə baş direktorun məlumatları təhlil olunub və məlum olub ki, solaxay rəhbərlər daha çox innovasiya edir, unikal patentlər təqdim edir və maliyyə baxımından daha yüksək gəlir əldə edirlər.



**Emil Salamoğlu:** “Solaxaylığım ucbatından meyvəni bıçaqla soymağı bacarmıram”



**Həmid Herisçi:** “İngilis konservativ cəmiyyəti solaxaylığa çox mənfi yanaşır”

Dünyada solaxaylar hərəkatının vüsət almasının maraqlı tarixçəsi var. 1980-ci ildə ABŞ-ın Missuri ştatından olan polis əməkdaşı Franklin Uinborn qoburu (tapança qabını) sol tərəfində daşıdığından rəhbərlik onu işdən çıxarıb. F.Uinborn solaxay olduğundan qoburu kəmərinin sol tərəfindən asırdı, halbuki nizamnaməyə görə o, tapança qabını sağ tərəfində daşımalı idi. O zaman polis işçisinin məhz solaxay olmasına görə işdən çıxarılması Amerikada ciddi əks-səda doğurub. Amerikalı solaxaylar F.Uinbornun müdafiəsi ilə bağlı mitinqlərə başlayandan sonra məhkəmə adıçəkilən polis əməkdaşının öz işinə bərpa edilməsinə dair qərar çıxarmağa məcbur olub.

Solaxaylığın xəstəlik olduğunu düşünənlər də var. Psixoloqlar deyir ki, solaxaylıq anadangəlmə olur, onu sonradan qazanılmış vərdiş adlandırmaq düzgün deyil.

Bəzi mütəxəssislər isə solaxaylığı beynin quruluşundan asılı olaraq, irsən keçən psixi hərəkət hesab edirlər. Hətta kral ailəsində II Yelizaveta, şahzadə Çarlz və şahzadə Uilyam solaxaylar sayılır. Maraqlısı odur ki, solaxaylar suyun altında daha yaxşı görə bilirlər. Ekstrasenslərin çoxu solaxaylardır. Psixoloqların hesablamalarına görə, solaxaylar arasında istedadlı insanlar 20 faiz, sağ vərdişlilərdə isə 5 faizdir.

Dünyada solaxay məşhurlar çoxdur. Buna misal olaraq Janna d,Ark, Lyuis Kerroll, Nikolay Leskov, Leonardo da Vinçi, Merilin Monro, Albert Eynşteyn, Bryus Uillis, Bill Qeyts, Yuli Sezar, Mikelancelo, Pol Makkartni, Mark Tven, Bethoven, Sergey Raxmaninov, Robert De Nironu göstərmək olar.

Məşhur siyasətçilər Yuli Sezar, Makedoniyalı İsgəndər, Napoleon Bonapart, Uinston Çörçill da solaxay olublar. Amerikanın keçmiş prezidentləri Ronald Reyqan, ata Corc Buş, Bill Klinton, Barak Obama da solaxay siyasətçilər sırasına daxildirlər.

Rusiya Prezidenti Vladimir Putin solaxay liderlər sırasında göstərilir. Putinin solaxay olduğunu gizlətməyə çalışdığı barədə də məlumatlar var.

**“Yeni Müsavat” qəzetinin redaktoru Emil Salamoğlu da solaxaydır. Bununla bağlı o, qəzetə danışıb:** “Əvvəla, biz hamı kimi deyilik. Çünki solaxaylarda beynin sağ yarımkürəsi fəal işləyir. Yəni sağ əllə yazan, işləyən adamlarda beynin sol yarımkürəsi işləyir, bizdə əksinə. Mən birinci sinifdə oxuyanda müəllim məcbur edirdi ki, sağ əllə yazmağı öyrənim, amma bacarmırdım və əsəbləşirdim. Sonra həkim qəbulunda olduq, dedi ki, müəllim məni məcbur etməsin, gələcəkdə əsəbi birinə çevrilə bilərəm. Valideynlərim həkimin sözlərini müəllimə çatdırdı.

Sadəcə, məndə solaxaylıq təkcə sol əllə yazmaqla məhdudlaşmır. Futbolu da sol ayaqla oynamışam, az-çox fiziki güc daha çox sol tərəfdədir. Belə desək, sağ əli “şikəst” də saymaq olar. Çünki onunla az iş görə bilirəm. Məsələn, solaxaylığım ucbatından hətta meyvəni bıçaqla soymağı bacarmıram".

**E.Salamoğlunun sözlərinə görə, solaxaylıq həm də genlə gəlir:** “Babam da, atam da solaxay olublar. Amma məndən fərqli olaraq, sağ əllə də iş görə biliblər. Ümumən, alimlər sübut edirlər ki, solaxay insanların beyninin sağ yarımkürəsi aktiv çalışır deyə başqalarından fərqlənirlər, hansı peşənin sahibi olsalar, orada uğur qazanırlar, təşəbbüskar, qabaqcıl olurlar. Təbii ki, solaxay, amma xüsusi istedadı olmayanlar da var. Amma solaxay uşaqlar məktəbli dövründən artıq digərlərindən seçilirlər. Yəni beynin sağ yarımkürəsi sürətli düşünür və qərarları çevik verir”.

**Solaxay jurnalist hesab edir ki, boksda, digər döyüş növlərində solaxay idmançılar daha tez uğur qazanır, bunun da səbəbi məlumdur**: “Eləcə də sol ayaqla vura bilən futbolçular rəqibi çaşdıra, aldada bilir. Yəni övladınız solaxaydırsa, burada mənfi heç bir hal axtarmayın. Əksinə, dünyanın məşhur, şöhrət qazanmış solaxay adamlarına baxıb uşağınız barədə daha da pozitiv düşünə bilərsiniz. Üstəlik, solaxay olmaq gündəlik həyatda hər hansı çətinlik yaratmır. Əksinə, psixoloqlar da xəbərdarlıq edir ki, uşağı zorla sağ ələ keçirəndə nevroz ola bilər. Bundan əlavə, alimlərə görə, solaxaylar oxuma-yazma texnikasında, ədəbiyyatda, incəsənətdə və biznes mühitində bacarıqlı olurlar”.

**Yazıçı-publisist Həmid Herisçi də solaxaydur. Həmta “Solaxay” romanının müəllifidir**: “Solaxaylar bədənin hər iki hissəsini - həm sağı, həm də solu işlətmək xüsusiyyətinə malikdirlər. Buna ambidekstriya deyirlər. İnsan təkcə bir hissəni istifadə edəndə ölüvay olur. İflic xəstəliklərinin yayılmağı da bununla bağlıdır. Çünki təkcə bir hissəni istifadə edəndə bədən gücə düşür. Romanımda da qeyd etmişəm ki, ideal insan hər iki beyin yarımkürəsini, həmçinin həm sağ, həm də sol əllərini eyni anda istifadə etməlidir. Bu, Təbriz fədai məktəbində ən çox işlədilən fənd olub. Adətən düşmənə soldan zərbə endirilirdi. Fədailərin əksəriyyəti solaxay idi. Onları solxaylıqlarına görə tanıyırdılar. Onlar düşməni sağ hərəkətlə aldadıb, soldan zərbə vururdular. Bəzi cəmiyyətlərdə, o cümlədən ingilis konservativ cəmiyyəti solaxaylığa çox mənfi yanaşır”.

**Yazıçı deyir ki, solaxaylıqla əlaqədar özündə öncəgörmələr hiss edir:** “Yenilikçilik, gələcəyə açıq olmaq, futiristika - bunlar solaxaylıqla bağlıdır. Bəzən solaxayları sağ əllə yazmağa məcbur edirlər. Bu, zülmdür. Bildiyimə görə, hazırda əksər uşaq məktəblərində, xüsusən Amerikada və Qərb ölkələrində iki əllə yazmaq qabiliyyəti inkişaf etdirilir. İkiəlli uşaqlar gələcəyin uşaqlarıdır. Gələcəkdə bütün insanlar belə olacaq. Ən uğurlu idmançılar və əsgərlər həmişə solaxaylar olurlar. Orduda da sol addım əsasdır...”

❑ **Şahanə RƏHİMLİ,**
**“Yeni Müsavat”**

## Övladların tərbiyəsində nələrə diqqət etməli?

**Valideynlərin uşaqlarına necə davranması barədə bir çox əsas prinsiplər mövcuddur ki, bunlar uşaqların sağlam emosional və psixoloji inkişafına töhfə verir.**

Moderator.az xəbər verir ki, aşağıdakı əsas məqamlar valideynlərə uşaqları ilə münasibətlərində kömək edə bilər:

**Sevgi və qayğı:** Uşaqlar sevildiklərini və dəyərləndirildiklərini hiss etməlidirlər. Valideynlər uşaqları ilə mehriban, qayğıkeş və anlayışlı olmalı, onlara sevgi göstərməlidir. Bu, onların özünə güvəninin artmasına və emosional sabitliklərinin təmin olunmasına kömək edir.

**Ədalətli və sabit qaydalar:** Uşaqların düzgün və səhv davranışları ayırd etməsi üçün valideynlər onlara aydın və ədalətli qaydalar qoymalıdır. Bu qaydaların ardıcıl tətbiqi uşaqların özlərini təhlükəsiz hiss etmələrini təmin edir.

**Dinləmə və empatiya:** Uşaqların hisslərini başa düşmək və onları dinləmək çox önəmlidir. Valideynlər uşaqlarına duyğusal dəstək göstərməli və onların fikirlərini, narahatlıqlarını qiymətləndirməlidirlər. Bu, uşaqların özlərini ifadə etmələrinə və özlərini başa düşülmüş hiss etmələrinə kömək edir.

**Müsbət tərbiyə üsulları:** Tərbiyə zamanı müsbət gücləndirmə (tərif, təşviq və ya mükafat) istifadə etmək uşaqların yaxşı davranışlarını təşviq edir. Cəzalar və ya mənfi münasibətlərin yerinə, uşağın davranışını düzgün yönləndirmək üçün müsbət metodlar tətbiq etmək daha faydalıdır.

**Özünə inamın aşılanması:** Uşaqların müstəqil və məsuliyyətli olmaları üçün onları cüzi risklərə qarşı təlimatlandırmaq və özlərini idarə etmək bacarıqları qazanmaqda dəstəkləmək vacibdir. Onlara öz bacarıqlarını inkişaf etdirmək üçün fürsət yaratmaq da əhəmiyyətlidir.

**Rol model olmaq:** Valideynlər öz davranışları ilə uşaqlarına nümunə olurlar. Beləliklə, özlərinin düzgün və etik davranışlarını nümayiş etdirmələri uşaqlara da müsbət təsir edir.

**Səbir və anlayış:** Uşaqlar bəzən səhv edər və ya çətinliklərlə üzləşərlər. Valideynlər bu dövrlərdə səbirli və anlayışlı olmalı, uşaqlara düzgün qərarları verməleri üçün rəhbərlik etməlidirlər.

**Məhdudiyyətlər və sərhədlər:** Uşaqlara məhdudiyyətlər qoymaq da önəmlidir. Bu, onların sosial qaydalara və etikaya uyğun davranmağı öyrənmələrinə kömək edir. Lakin bu sərhədlər uşaqların təbii inkişafına zərər verməməli və yetərincə elastik olmalıdır.

Bu prinsiplər uşaqların psixoloji və emosional inkişafına müsbət təsir göstərir, həmçinin sağlam münasibətlər qurulmasına kömək edir.

# Təmiz su içmək niyə problemə çevrilib?

## İçməli suyun keyfiyyətinə heç kim zəmanət vermir, əvəzində isə...

**Hamımız içdiyimiz sudan, onun keyfiyyətindən zaman-zaman şikayətlənirik. Ekspertlər də söyləyir ki, Bakı, Abşeron zonasında əhaliyə verilən içməli suyu "içməli su" adlandırmaq olmaz. Çünki istər bu suyun tərkibində olan ağır metallar, istərsə xlor normadan çoxdur. Eyni zamanda PH, qələviliyin aşağı olmasına görə bu suyu içməli su adlandırmaq olmaz. Bu su daha çox texniki suya yaxındır.**

Ekspertlər iddia edirlər ki, ümumiyyətlə, insanların içməli suya olan tələbatı iqlimdən asılıdır. Orta hesabla 1 nəfər gün ərzində qida ilə birlikdə 3-6 litrə qədər su qəbul edir. Suda orqanizmin normal inkişafı üçün lazım olan üzvi və qeyri-üzvi maddələr var. Lakin içdiyimiz suyun tərkibində orqanizm üçün zərərli maddələr az deyil. Həmin zərərli maddələrin insan sağlamlığına mənfi təsirini azaltmaq və aradan qaldırmaq üçün suyun təmizlənməsi lazımdır.

Qeyd edək ki, mütəxəssislər içməli suyun tərkibində olan kənar qarışıqların yol verilən həddini müəyyənləşdirib və buna uyğun olan dövlət standartlarını təyin ediblər. Bu standartlarda içməli su mənbələrinin seçilməsində də xüsusi tələblər qoyulub.

Araşdırmalar sübut edib ki, içməli su mənbələrindən ən təmiz hesab olunanı artezian sularıdır. Lakin bu sular da mineral tərkibinə görə istehlakçıların tələbini heç də həmişə ödəmir. Digər tərəfdən, yaşayış məntəqələrinin hamısının artezian suyu ilə təmin edilməsi üçün bu sular lazımi miqdarda mövcud deyil. Nəzəri cəhətdən yağış suları da təmiz hesab olunur. Lakin onlar yerə çatana qədər atmosferdə çirklənir. Belə ki, yağış buluddan yer səthinə qədər olan məsafədə tozla qarışır və müxtəlif qazları, o cümlədən karbon, azot və nəqliyyatın kənar etdiyi qazları özündə həll edir. Bu səbəbdən yağış suları sağlamlıq üçün çox təhlükəlidir və içmək üçün yararlı deyil. Bu suların təmizlənməsi isə texnoloji cəhətdən həddən artıq çətindir.

**Sağlam Cəmiyyət Hərəkatının rəhbəri, sosioloq Elçin Bayramlı mətbuata açıqlamasında bu mövzudakı araşdırmalara zaman-zaman toxunub. Onun sözlərinə görə, hazırda Bakı və Abşeronda təbii su qəbul etmək qeyri-mümkündür:** "Müxtəlif ölçmələr apardıqda da bunu aydın şəkildə görmək olur. Üstəlik, keçən il Amerikanın məşhur "Yale" Universitetinin dünyanın 170 ölkəsi arasında apardığı hesabatda Azərbaycan 140-cı yerlərdə qərar tutmuşdu. Bizim ölkə ən çirkli və yararsız suyu olan ölkələrdən sayılır. Belə vəziyyətdə əhalinin təmiz su içmək imkanı demək olar ki, yoxdur. Çünki alternativ variantlar heç də sağlam, təbii su qəbul etməyə imkan vermir. Filterdən keçən su kimyəvi birləşmələri, xloru təmizləyir, bəli, amma faydalı mineralları da sudan götürür. Bu su tamamilə boş, "ölü" su sayılır. Yəni filterlənmiş su da faydalı su deyil.

Digər üsullarla - pambıqdan süzməklə suyun kimyəvi tərkibi heç cür təmizlənə bilməz, effektsizdir. Qaynadılmış su da "ölü su" sayılır, onun heç bir müsbət təsiri yoxdur. Mağazalarda satılan qablaşdırılmış sular da filtirlənmiş, "ölü su"dur. Qısası, Bakı, Abşeron zonasında faktiki olaraq təbii içməli su qəbul etmək imkanı yoxdur".

**Ekspert bildirib ki, sudan faydalanmağımız mümkünsüz olsa da, bəzi üsullarla onun zərərlərindən qorunmaq olar:** "Əgər çıxış yolunu soruşsanız, heç bir məsləhət verə bilmərəm. Bu məsələdə bizə suyun faydası lazım deyil, çalışıb onun zərərindən qorunmalıyıq. Sular filter aparatından keçiriləndə fayda verməsə də, ən azından zərərsiz olur. Faydalı minerallar itsə də, ən azından bu suda olan təhlükəli maddələr, xlor uzaqlaşdırılır. Təəssüf ki, bu istiqamətdə ciddi bir iş görmürük. Düzdür, son dövrlərdə Oğuz-Qəbələ-Bakı su kəməri çəkilib, bu su digərlərinə nisbətən yaxşıdır, amma nəzərdə tutulan normadan iki dəfə az su götürülür və Bakı əhalisinin üçdə birini təmin edir. Üstəlik, bu su əksər hallarda digər sularla qarışdırılır. Beləliklə, o da öz keyfiyyətini itirmiş olur.



Sumqayıtda dünya standartlarına uyğun su təmizləyici zavod tikilir, amma bu zavod da Bakı-Abşeron əhalisinin tələbatının maksimum 30 faizini ödəmək iqtidarındadır. Orada təmizlənən su dünya standartlarına cavab verir, amma çox az əhalini təmin edə bilər.

Bütün Bakını təmin etmək üçün belə zavodların sayı və gücü artırılmalıdır. Hazırda təəssüf ki, biz bu barədə danışa bilmərik. Saf suyun içilməsi Bakı-Abşeron zonasında faktiki olaraq mümkün deyil".

**Keyfiyyətsiz su içən təkcə biz deyilik...**

Ölkəmizdə içməli su problemi getdikcə aktuallaşmaqdadır. İçməli su çatışmazlığı ilə üzləşə bilmə ehtimalının artması, nəinki Azərbaycanı, əksər dövlətləri problemin həlli istiqamətində daha ciddi düşünməyə sövq edir. Çünki içməli suyun həcmi eyni qalsa da, suya olan tələbat ildən-ilə artır. Hazırda Yer kürəsindəki su ehtiyatının 97,5 faizi şor, yalnız 2,5 faizi içməli sudan ibarətdir. Yer kürəsində ümumi su balansı sabit saxlanıldığı halda, təxminən son 50 ildə məişətdə su sərfi 31, sənayedə 39, kənd təsərrüfatında isə 28 dəfə artıb. Nəticədə dünyada hər 6 insandan biri içməli su çatışmazlığından əziyyət çəkir. Beynəlxalq təşkilatların hesablamalarına görə, su ilə bağlı xəstəliklər təxminən hər səkkiz saniyədə 1, bir saatda 450, bir gündə 10 min 800, bir ayda 324 min, bir ildə isə 3 milyon 888 min uşağın ölümünə səbəb olur. İnkişaf etməkdə olan ölkələrdə 80 faiz xəstəliklər standartlara uyğun olmayan içməli sudan istifadə ilə bağlıdır. Ümumdünya Səhiyyə Təşkilatının açıqlamasına görə, hazırda dünya əhalisinin 80 faizi keyfiyyətsiz, 40 faizi isə çirkli, ziyanlı sudan istifadə edir. Araşdırmalara görə, dünyanın əksər ölkələrində təmiz su ilə təmin olunmaq kəskin problemə çevrildiyindən eybəcər, qüsurlu, müxtəlif fəsadlarla doğulan körpələrin sayı 12-14 faiz, bir yaşa qədər ölənlərin sayı isə təxminən 18-20 faiz artıb.

Müasir dünyamızda çirkli su həm də bir çox xəstəliklərin əsas səbəblərindən biridir. Dünyada içməli sudan istifadə edə bilməyən insanların sayı 2 milyardı ötüb. Suyun təmizlənməsi və daşınmasına çəkilən xərclər dünyada il ərzində təqribən 90 milyard dollar (2015-2025-ci illərdə bu xərclər 2-3 dəfə arta bilər) təşkil etsə də, problemin həllinə nail olmaq mümkün olmayıb. Bu kontekstdən çıxış edən ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsinin 2020-ci ilə qədər hazırladığı proqnozlara görə, 2020-ci ilədək inkişaf etmiş ölkələrin bir-biri ilə yanacaq resursları üstündə deyil, məhz içməli su üstündə savaşacaqları ehtimalı daha böyükdür.

Əsas təbii su hövzəsi olan Xəzər dənizinə bütün mənbələrdən ildə təxminən 12 mlrd. kub.m çirklənmiş sular axıdılır ki, bunun da 80 faizi Rusiyanın payına düşür. Azərbaycan ərazisindən isə dənizə hər il 250 mln. kub.m-dən artıq çirkli su axıdılır. Nəticədə Bakı buxtasında 60 mln. kub.m-dən çox çirkləndirici maddələr toplanıb.

Kürün suyunun 74%-i isə Gürcüstan və Ermənistan ərazilərindən formalaşır və həddən artıq çirklənməyə məruz qalır. Hesablamalar göstərir ki, Kür çayı hövzəsinə Ermənistandan (Arazla) ildə orta hesabla 300 mln.kub.m, Gürcüstandan 265 mln.kub.m, Azərbaycandan isə 25 mln.kub.m çirklənmiş su atılır və nəticədə Kür çayı suyunun mis, sink, fenol, neft məhsulları və s. zərərli maddələrlə həddən artıq çirklənməsi müşahidə edilir.

Bundan başqa, təmizlənməmiş təsərrüfat-məişət çirkab suları ilə çaya ildə 40 min ton üzvi maddələrin axıdılması oksigenin biokimyəvi istifadəsinin kəskin artmasına səbəb olur. Kür çayında fenolların miqdarı normadan 10 dəfə, karbohidrogen isə 36 dəfə artıqdır.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Sevinc TELMANQIZI

# Kütləvi zəhərlənməyə görə kompensasiya

## Eyyub Hüseynov: "Qida zəhərlənmələri ilə bağlı problemlər qanundakı boşluqlardan qaynaqlanır"

**Son zamanlar müxtəlif iaşə obyektlərində, şadlıq saraylarında kütləvi zəhərlənmələr, saxta içkilərin verilməsi xəbərləri ilə tez-tez rastlaşırıq. Bu yaxınlarda paytaxtın Xətai rayonunda yerləşən "Venesiya" şadlıq sarayında kütləvi zəhərlənmə hadisəsi baş verdi.**

Orada keçirilən məclisdə müğənnilər də daxil olmaqla, 50-dən çox şəxs zəhərlənərək tibbi yardım aldı. Oxşar hadisə paytaxt və bölgələrdə fəaliyyət göstərən müxtəlif restoran, şadlıq evi, iaşə obyektlərində də qeydə alınıb. Ancaq iaşə obyektində baş




verən zəhərlənməyə görə bu günə kimi heç bir zərərçəkənə kompensasiya ödənilməyib. Halbuki onlar həmin məkanın keyfiyyətsiz qidalarının, xidmətinin qurbanı olub.

Maraqlıdır, iaşə obyekti, restoran sahibi zərər çəkənlərə kompensasiya ödəməlidir mi?

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov** "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Azərbaycanda qida zəhərlənmələri ilə bağlı problemlər qanundakı boşluqlardan qaynaqlanır. Ərzaq təhlükəsizliyi ilə bağlı qanun olsa da, qida təhlükəsizliyi və keyfiyyətini tənzimləyən qanun yoxdur: "Qida zəhərlənməsinə görə heç bir ciddi iş görülmür. Normalda qidadan zəhərlənməyə görə xidmət göstərən obyekt tərəfindən vətəndaşa kompensasiya verilməlidir. Ancaq bir bunun şahidi olmuruq. Qidadan zəhərlənən vətəndaş müalicəni öz vəsaiti hesabına aparır. Bu, sadəcə, anormallıqdır. Hansısa iaşə obyektində zəhərlənmə qeydə alınırsa, kompensasiya məhkəmə iddiaları əsasında qarşı tərəfdən həyata keçirilməlidir. Zərərçəkənlərə kompensasiya da verilməlidir".

**Ekspert hesab edir ki, məlum məsələ ilə bağlı qanunvericiliyə dəyişiklik edilməlidir. Belə ki, toyxana və sifariş verən arasında müqavilə imzalanmalı, bütün şərtlər göstərilməlidir:** "Toy etmək istəyən şəxs ilk olaraq mətbəxə baxmalı, yeməklərə, gigiyenaya baxmalıdır. Hər hansı bir hadisə baş verərsə, buna görə təzminat ödəməlidir".

YENİ MÜSAVAT
Son səhifə
N 80 (8690) 9 may 2025
May

## Bunları bilirsinizmi?

* Sehirli sözlərdən biri olan "Abrakadabra" ilk dəfə temperaturu yüksək olan xəstələrin qızdırmasını salmaq üçün işlədilib.
* Ağcaqanadların beş gözü var.
* Səudiyyə Ərəbistan ərazisində çay mövcud deyildir.
* Yarım kilo bal edə bilmək üçün arılar iki milyondan çox çiçəkdən bitki yığmaq məcburiyyətindədirlər.
* Yetkin bir ayı, bir at qədər sürətli qaça bilər.
* Zürafələrin dilinin uzunluğu 35 sm-dir. Və onlar üzməyi bacarmırlar.
* Sağ əlini istifadə edən insanlar sol əlini istifadə edənlərə nisbətən doqquz il daha çox yaşayırlar.
* Sarışınların əsmərlərdən daha çox saçı var.
* Yeni Zelandiya dünyadakı hər cür iqlimin mövcud olduğu tək ölkədir.
* Yetkin bir insan gündə 23 min dəfə nəfəs alır.
* Zürafələrin səs telləri yoxdur.
* Timsahlar rəng korudur.
* Rusiyada şərqdən qərbə doğru səyahət edilərsə, yeddi saat qurşağı keçilmiş olar.

# Restoranda qazlı su içən kişinin daxili orqanları yandı



**İspaniyada Pablo Qonsales adlı 42 yaşlı kişi dostları ilə restoranda nahar edərkən bir qurtum qazlı su içib və nəticədə mədə və qida borusunda ciddi yanıq xəsarətləri alıb. Bu barədə "Oddity Central" nəşri məlumat yayıb. Hadisə zamanı şüşənin möhürlü və normal göründüyünü bildirən Qonsales ilk qurtumdan sonra ağzında kəskin yanma hiss etdiyini söyləyib. Daha sonra suyun rənginin sarımtıl olduğunu görüb və ağzını yaxalamağa çalışsa da, vəziyyəti daha da pisləşib.**

Qonsales üç həftə ərzində nə su içə, nə də qida qəbul edə bilib. Həkimlərin sözlərinə görə, o, yalnız uzun müalicədən sonra tədricən qida qəbul etməyə başlayıb. Lakin tam sağalacağı hələ də dəqiq bilinmir. İlkin ehtimala görə, suya və ya stəkana təsadüfən təmizləyici vasitə qarışıb. Restoranın sahibi isə bu ehtimalı inkar edir.



## İnsan gözünün görmədiyi rəng kəşf edildi

**Tədqiqatçılar insan gözünə görünməyən "OLO" adlı rəngin mövcud olduğunu iddia ediblər.Alimlərin kəşf etdiyi yeni "olo" rəngi mavi və yaşıl çalarlar arasında bir rəngə bənzəyir, insan gözünə görünmür, onu ekranda və ya kağızda göstərmək mümkün deyil, lakin rəng cihazlar vasitəsilə qeydə alınır. İnsan gözü yalnız 380-dən 750 nanometrə qədər dalğa uzunluqlarını ayırd edə bilir - bu spektr bənövşəyidən qırmızıya qədər göy qurşağı kimi tanınır.**

Lakin onun hüdudlarından kənarda, xüsusən də heyvanlar aləminin nümayəndələri arasında fərqlənən müxtəlif rəng çalarları da var. Ultraviolet işıq - insan gözünə görünməyən bu kölgə arılar, bəzi quşlar və sürünənlər tərəfindən aşkar edilir. İnfraqırmızı - ilanlar tərəfindən qəbul edilir. Radio dalğaları, rentgen şüaları, qamma radiasiya - bizim gözlərimiz də bunların heç birini ayırd edə bilmir, yalnız alətlərlə aşkar edilə bilər.

## Rusiyada qorxunc hadisə: supermarketdə tavan satıcıların və müştərilərin başına uçdu

**Rusiyanın Sankt-Peterburq şəhərində yerləşən supermarketlərdən birində tavanın çökməsi nəticəsində satıcılar və müştərilər təhlükə ilə üzləşiblər. Bu barədə "112" Telegram kanalı məlumat yayıb. Bildirilib ki, birinci və ikinci mərtəbələr arasındakı tavan qəfil insanların və məhsullarla dolu rəflərin üzərinə aşıb. Hadisə zamanı mağazada olanların əksəriyyəti xəsarət almasa da, bir işçi dağıntıların altında qalıb. O xilas edilib və demək olar ki, heç bir ciddi xəsarət almayıb. İlkin ehtimallara görə, çökməyə səbəb yuxarı mərtəbədə aparılan təmir işləri olub. Faktla bağlı araşdırma aparılır.**

## Makaron illərdir yanlış bişirilirmiş



**Makaron illərdir səhv üsulla bişirilir Milli.Az bildirir ki, makaronun ən doğru bişirmə üsulu onu birbaşa sobada hazırlamaqdır. Mütəxəssislər bildiriblər ki, makaronu əvvəlcədən yarı bişirib sonra sobaya qoymaq əksinə, dadını azaldır və quruluq yaradır. Çünki yarıbişmiş makaron sobada artıq dərəcədə bişir və həm içindən bərk qalır, həm də xarici quruluğu itir. Ən doğru üsul - quru makaronu əvvəlcədən sousla yaxşıca qarışdırmaq və həmin qarışığı birbaşa sobaya yerləşdirməkdir. Bu zaman makaron sousdakı nəmliyi özünə çəkir, içdən yumşaq, üstdən isə xırçıldayan və zərif dad əldə olunur.**

Mütəxəssislər həmçinin xəbərdarlıq ediblər ki, bişirmə zamanı suya duz əlavə etmək makaronun dadını daha da zənginləşdirir. Duzsuz su ilə bişirilən makaron isə dadsız və sönük olur. Bəzi aşpazlar isə sousun miqdarının da önəmli olduğunu qeyd ediblər - sous kifayət qədər bol olmalıdır ki, makaron sobada bişərkən tam nəmlənsin və qurumasın.

Artıq yeni üsulla bişirilən makaron, həm qida dəyərini qoruyur, həm də hər loxmada fərqli dad hiss etdirir. Bu üsul son illərdə Avropada məşhurlaşıb və indi dünyanın bir çox yerlərində tövsiyə edilir.

## Şəhərlər bunu içən gec qocalır



**Hollandiya alimlərinin apardığı yeni araşdırmaya görə, səhərlər müntəzəm olaraq qəhvə içmək yaşlanma prosesini ləngidə, depressiya riskini isə 20 faiz azalda bilər. "European Journal of Nutrition" jurnalında dərc olunan araşdırmada 55 yaşdan yuxarı 1161 nəfər iştirak edib. Onların gündəlik qəhvə istehlakı ilə yaşla bağlı fiziki zəiflik əlamətləri arasındakı əlaqə qiymətləndirilib.**

Milli.Az xəbər verir ki, tədqiqatı aparan Amsterdam İctimai Sağlamlıq Araşdırmaları İnstitutunun eksperti Marqret R. Olthof bildirib ki, gündə 4-6 stəkan (təxminən 125 ml) qəhvə istehlak edən şəxslərdə yorğunluq, əzələ itkisi, yavaş hərəkət kimi zəiflik əlamətləri daha az müşahidə olunub.

Qəhvənin tərkibindəki polifenollar və hidroksisinnamik turşular kimi güclü antioksidantlar hüceyrələri qoruyur, iltihabı azaldır və insulin həssaslığını artırır. Bu xüsusiyyətlər qəhvəni xüsusilə yaşlılar üçün faydalı bir içki halına gətirir.

Dr.Olthof qeyd edir ki, "Qəhvə içmək bir çox insanın gündəlik həyatının bir hissəsidir. Tədqiqatlarımız göstərir ki, bu sadə vərdiş yaşlandıqca sağlam qalmağa müsbət təsir edə bilər".

Alimlər xəbərdarlıq edirlər ki, qəhvə faydalı olsa da, onun həddindən artıq qəbulu ürək döyüntüləri və yuxusuzluq kimi mənfi təsirlərə səbəb ola bilər. Buna görə də balanslı istehlak tövsiyə olunur.

## Allergiyanı yüngülləşdirmək üçün sarımsaq-bal qarışımı



**Sarımsaq balı, ənənəvi Çin təbabətində yüksək dəyərləndirilir və artıq 2500 ildən çoxdur ki, tətbiq olunan kompleks müalicə sisteminə daxildir. Ancient Digin səhifəsində allergiya tutmaları zamanı sarımsaq balının faydaları barədə məlumat paylaşılıb. Sarımsaq balı mikroblara qarşı və orqanizmi təmizləyici xüsusiyyətlərə malikdir, həzmi yaxşılaşdırır və sarımsağın rahatlaşdırıcı və nəmləndirici təsiri balla mükəmməl uyğunlaşır.**

Niyə məhz sarımsaq balı?

Allergiyanı azaldır - Sarımsaq və balın iltihab əleyhinə xüsusiyyətləri allergiya simptomlarını yüngülləşdirə və ümumi tənəffüs funksiyasını yaxşılaşdıra bilər.

İmmuniteti gücləndirir - Antimikrob və antiviral xüsusiyyətlərə malikdir, bu da orqanizmi qoruyur.

Tənəffüs yollarını qoruyur - Soyuqdəymə, öskürək və digər tənəffüs yolu problemlərinə qarşı rahatlaşdırıcı təsir göstərir.

Həzm sistemini dəstəkləyir - Sağlam həzmi təşviq edir və mədə-bağırsaq problemlərini yüngülləşdirir.

Ürək sağlamlığını yaxşılaşdırır - Qan dövranını sürətləndirir və xolesterinin səviyyəsini azaldır.

Sarımsaq balı necə hazırlanır?

Tərkibi

Təzə sarımsaq dişləri

Orqanik bal

**Hazırlanma qaydası:**

Sarımsağı təmizləyin və xırda doğrayın. Təmiz bir şüşə bankaya yerləşdirin. Üzərinə bal əlavə edin, elə ki, sarımsaq tamamilə balın içində qalsın. Bankanı bağlayın və bir neçə gün otaq temperaturunda dəmlənməyə qoyun.

**İstifadə qaydası:**

Gündəlik sağlamlıq üçün - Hər gün bir qədər sarımsaq balı qəbul edin. Soyuqdəymə, allergiya və tənəffüs problemləri zamanı gündə bir neçə dəfə 1-2 çay qaşığı qəbul edin.

Yüksək keyfiyyətli, orqanik məhsullardan istifadə edin. Hər hansı yeni vasitəyə başlamazdan əvvəl həkimlə məsləhətləşin. Əgər bal və ya sarımsağa qarşı allergiyanız varsa, bu vasitədən istifadə etməyin. Sarımsaq balını otaq temperaturunda, şüşə qabda saxlayın.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Lisenziya N: B 114
SAYI: 1.500
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır.
Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.